Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Birinci sessiya
Payız

14-cü cild

10 dekabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**YEDDİNCİ ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**I SESSİYASI İCLASININ**

# PROTOKOLU № 15

*Milli Məclisin iclas salonu.*
*10 dekabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 115 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında.
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
3. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq

edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. “Bələdiyyələrin maliyyəsinin əsasları haqqında”, “Büdcə sistemi haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

9. “Elm haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

10. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında” və “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Pərvanə Vəliyeva, Naqif Həmzəyev, Arzu Nağıyev, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Zahid Oruc, Jalə Əliyeva, Tural Gəncəliyev, Günay Ağamalı, Ceyhun Məmmədov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**3. "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Zahid Oruc, Hicran Hüseynova

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**4. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**5. "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**6. "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Azər Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**7. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**8. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublika-**

**sının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**9. "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar İsgəndərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**10. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**11. "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Hicran Hüseynova, Zahid Oruc, Hikmət Məmmədov, Əli Əhmədov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Ziyafət Əsgərov, Əhliman Əmiraslanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

**14. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**15. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*10 dekabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri! Hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 112 |
| Yetərsay | 83 |

Yetərsay var, iclasa başlayırıq.

Hörmətli həmkarlar, bildiyiniz kimi, dekabrın 7-də Milli Məclisdə Azərbaycan parlamentinin 106-cı ildönümünə həsr edilən Beynəlxalq parlament konfransı keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları, Türkiyə, Rusiya, Pakistan, Özbəkistan, Gürcüstan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Belarus, İraq, Efiopiya, İndoneziya,

Malayziya parlamentlərinin və Türk PA, MDB-nin Parlamentlərarası Assambleyası kimi beynəlxalq təşkilatların 100-ə yaxın nümayəndəsi iştirak edirdi. Konfransda "Parlamentarizm: ənənələr və perspektivlər" mövzusu ətrafında müzakirələr aparıldı, 27 nəfər çıxış etdi.

Milli Məclis sədrinin və üzvlərinin çıxışlarında müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin və onun parlament irsinin müasir dövrün çağırışları şəraitində əhəmiyyəti vurğulandı. Azərbaycanın hələ əsrin əvvəllərində demokratik prinsiplərə və mütərəqqi dövlət quruculuğuna sadiq olduğu, xalqımızın zəngin parlamentarizm ənənələrinin son 30 ildən artıq dövrdə daha da inkişaf etdirildiyi bildirildi.

Xüsusən Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda ali hakimiyyətə qayıdışının ölkəmizdə sabitliyin qorunub saxlanılması və möhkəmləndirilməsi, eyni zamanda, yeni parlament institutunun formalaşdırılması baxımından həyati əhəmiyyət daşıdığı nəzərə çatdırıldı. Qeyd olundu ki, bu gün Milli Məclis möhtərəm cənab Prezident İlham Əliyevin ölkəmizə böyük uğurlar və qələbələr qazandıran milli inkişaf strategiyasının həyata keçirilməsi prosesinə öz qanunvericilik fəaliyyəti ilə töhfə verir.

Hörmətli həmkarlar, eyni zamanda, ölkəmizə qarşı böhtan və dezinformasiya kampaniyaları aparıldığı, təxribatlar törədildiyi, lakin onların nəticəsiz qaldığı da vurğulandı.

Bundan əlavə, tədbir çərçivəsində ADA Universitetində "İctimai diplomatiyada parlamentlərin rolu: Azərbaycan və Türkiyə nümunəsi" mövzusunda beynəlxalq dəyirmi masa keçirildi. "Parlamentlərin ictimai diplomatiyada rolu" və "Parlamentlərin fəaliyyətində rəqəmsal texnologiyalar və kütləvi informasiya vasitələrinin rolu"

mövzuları ətrafında fikir mübadiləsi də aparıldı.

Hörmətli deputatlar, konfrans çərçivəsində Türkiyə, Pakistan, Qazaxıstan, Tacikistan parlamentlərinin təmsilçiləri ilə ikitərəfli görüşlər də keçirildi.

Hesab edirəm ki, konfrans parlamentlərarası dialoqun və qarşılıqlı əlaqənin dərinləşməsi baxımından böyük əhəmiyyət daşıyır. Konfrans iştirakçılarının Zəfər parkına getməsi, Heydər Əliyev Mərkəzi ilə tanış olması, işğaldan azad edilmiş əraziləri – Füzulini, Şuşanı, Xankəndini və Xocalını ziyarət etməsi onların Azərbaycan reallıqlarına daha yaxından bələd olmasına şərait yaratdı.

Hörmətli həmkarlar, mən konfransın yüksək səviyyədə təşkilinə görə Milli Məclisin hər bir üzvünə, sədr müavinlərinə, komitə sədrlərinə, deputatlara, Milli Məclis Aparatının və İşlər İdarəsinin əməkdaşlarına minnətdarlığımı bildirirəm.

İndi isə xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bizim 30 dəqiqə vaxtımız var. Cari məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, buyursun, yazılsın. 10 nəfərin siyahısı saxlanılsın. Vəliyeva Pərvanə.

Buyurun.

**Pərvanə Vəliyeva**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Bir neçə gün sonra Ulu Öndər, dahi şəxsiyyət, Ümummilli Liderimiz Heydər Əliyevin vəfatının 21-ci ildönümüdür. Onu ölümünün 21-ci ildönümündə ehtiramla anırıq.

Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasından sonra ölkənin inkişafı istiqamətində atdığı addımlarla böyük bir irs qoymuşdur. Onun dövründə Azərbaycan beynəlxalq aləmdə nüfuzunu artırmış və ölkənin iqtisadiyyatı güclənmişdir. Apardığı uğurlu siyasət ölkənin modernləşməsinin və enerji ilə zəngin bir dövlətə çevrilməsinin əsasını qoymuşdur.

Heydər Əliyevin Azərbaycanın siyasi və ictimai həyatında təsiri hələ də özünü göstərir. Onun irsi Azərbaycanın siyasi və mədəni kimliyində mərkəzi rol oynamaqda davam edir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Ümummilli Liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Bu siyasətin davamı olaraq 1996-cı il fevralın 2-də Azərbaycan Respublikası Gənclərinin ilk Forumu keçirildi və bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Ulu Öndərin həyatına toxunduğu milyonlarca Azərbaycan gəncindən biri olaraq onun gənclərin təhsilinə verdiyi önəm, onların gələcək taleyində, karyerasında necə böyük rol oynaması haqqında danış-

maq istərdim. 1988-ci ildə Qərbi Azərbaycandan zorla çıxarılan insanlara heç bir beynəlxalq humanitar, donor təşkilatların dəstəyi olmadığı bir dövrdə, Azərbaycan yenə də siyasi ikiüzlülüyün və ikili standartların şahidi olduğu bir vaxtda xalq öz xilaskarını axtarırdı. 1994-cü ildə Heydər Əliyev hakimiyyətə gələn zaman 300 mindən çox Qərbi Azərbaycandan qovulmuş qaçqın da Ümummilli Liderə pənah gətirdi, ona arxalandı və güvəndi.

Ulu Öndər Qarabağ və Şərqi Zəngəzur bölgəsindən qaçqın və məcburi köçkün düşmüş şəxslərdən bizi – Qərbi azərbaycanlı qaçqınlarını heç zaman ayırmadı və imzaladığı bütün humanist sərəncam və fərmanları bizlərə də şamil etdi. Bununla kommunal xərclərin ödənilməsinə, aylıq müavinətlərin, digər güzəşt və imtiyazların verilməsinə başlanıldı. Belə ki, Ümummilli Liderin 2003-cü ildə imzaladığı sərəncamla dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan qaçqın və məcburi köçkün düşmüş şəxslər, gənclər təhsil haqqını ödəməkdən azad edilmişdi. Bu sərəncamdan ailə üzvlərim də yararlanmışdır. Bu təşəbbüs on minlərcə elə gəncin təhsilinə böyük dəstək olmuş və onlar təhsillərini qaçqın düşmüş ailəyə yük olmadan başa vurmuşlar. Eləcə də Ulu Öndərin ilk dəfə...

**Sədrlik edən.** Pərvanə xanım, sağ olun. Bu çıxışlar 3 dəqiqədir. Xahiş edirəm, Siz həmişə o reqlamentə uyğun çıxış edəsiniz. Naqif Həmzəyev.

**Naqif Həmzəyev**. Hörmətli xanım sədr, mənə söz verdiyinizə görə çox sağ olun. İlk növbədə “Parlamentarizm: ənənələr və perspektivlər” mövzusunda beynəlxalq parlament konfransının uğurla təşkil edilməsi münasibəti ilə Sizi və bütün həmkarlarımı ürəkdən təbrik edirəm.

Artıq 2024-cü ilin sonuna yaxınlaşırıq. Bu il ölkəmizdə çox mühüm və əlamətdar hadisələrlə yadda qaldı. İşğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri davam edir. Bu çərçivədə bir çox layihələr tamamlanmış, digərləri isə sürətlə həyata keçirilməkdədir. Azərbaycanın milli iradəsi ilə infrastruktur imkanları bu prosesin yüksək səviyyədə icrasını təmin etmişdir. Artıq uzun illər boyu məcburi köçkün kimi yaşayan bir çox soydaşlarımız öz doğma yurdlarına qayıdıb. Bu, ölkəmizin sosial ədaləti bərpa etmək yolunda atdığı mühüm addımlardan biridir.

Həmçinin bu il Qarabağda, Xankəndi şəhərində dövləti-miz üçün tarixi əhəmiyyətə malik bir hadisə baş verdi. Qarabağ Universitetinin açılışı həyata keçirildi. Bu, yalnız təhsil infrastrukturunun genişləndirilməsi deyil, həm də Azərbaycanın suverenliyinin daha da möhkəmləndirilməsi istiqamətində mühüm addımdır. Universitetdə təhsil al-mağa başlayan azərbaycanlı tələbələr ölkənin elmi və mədəni inkişafına mühüm töhfələr verəcəklər.

Bundan əlavə, 2024-cü ildə Azərbaycanın dünya səviy-yəsində nüfuzunu artıran mühüm beynəlxalq tədbirlərdən biri də BMT-nin İqlim Dəyişikliyi Konfransının – COP29-un ölkəmizdə keçirilməsi oldu. Bu tədbir Azərbaycanın iqlim dəyişikliyinə qarşı qlobal mübarizədə fəal iştirak etdiyini və ekoloji problemlərin həlli istiqamətində beynəlxalq tərəfdaşlıqda önəmli mövqe tutduğunu nümayiş etdirdi. Konfransın nəticələrinin həm yerli, həm də qlobal səviy-yədə ekoloji sabitliyin təmin olunmasına töhfə verə-cəyindən əminik. Bütün bu nailiyyətlər Azərbaycanın davamlı inkişaf və beynəlxalq miqyasda tanınmış etibarlı tərəfdaş imicini möhkəmləndirdiyini bir daha sübut edir.

Ölkəmiz həm daxili, həm də xarici siyasətdə qətiyyətlə irəliləyərək gələcəyə ümidlə baxır. Azərbaycanın inkişafını və yaratdığı yeni reallıqları qəbul etmək istəməyən xarici və sapı özümüzdən olan qüvvələr min oyun qursalar da, dövlətimiz və xalqımız onların arzularını ürəklərində qoyacaqlar. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Arzu Nağıyev. Buyurun,

**Arzu Nağıyev**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, həmkarlar, media nümayəndələri, Azərbaycan COP29 kimi beynəlxalq səviyyəli daha bir möhtəşəm tədbirə ev sahibliyi etdi. Təbii ki, belə tədbirdə beynəlxalq standartlara uyğun olaraq, təhlükəsizlik daha böyük əhəmiyyət kəsb edən məsələ idi və bir neçə aspekti əhatə edirdi.

1. Fiziki təhlükəsizlik.
2. Kiber təhlükəsizlik.
3. Sağlamlığın qorunması.
4. Keçirilə biləcək dinc aksiyalarda təhlükəsizliyin təmin edilməsi.
5. Logistika və nəqliyyat məsələsi.

Fiziki təhlükəsizlik tədbir vaxtı yüksək rütbəli şəxslərin, o cümlədən dövlət və hökumət başçılarının qorunması, bütün iştirakçıların yoxlanılması, yerlərin təhlükəsizliyini təmin etmək, əsas obyektlərə və tədbirlərə girişi əhatə etdiyinə görə ən yüksək səviyyədə təşkil edildi. Burada Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Gömrük Xidməti, bir sözlə, aidiyyəti olan bütün qurumlar öz işini yüksək səviyyədə qura bildi.

Kiber təhlükəsizlik. COP29 ərəfəsində və keçirilən vaxt tədbirlər və çıxışlar hakerlərin və kiber cinayətkarların daha da diqqətini cəlb edirdi. Kiber hücumlardan qorun-

maq, rabitələri və sistemləri mühafizə etmək üçün xüsusi təhlükəsizlik protokolları yaradıldı və həyata keçirildi. COP29-un əsas və ehtiyat data mərkəzləri Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin məlumat mərkəzində yerləşdirildi. Tədbirlərin keçirildiyi Olimpiya stadionunun ərazisində internet təminatı da ən yüksək səviyyədə idi, AzTechNet dövlət provayderinin kiber hücumlarından qorunan şəbəkəsi vasitəsi ilə reallaşdırıldı. COP29-un IT komandası qarşıya qoyulan vəzifəni uğurla yerinə yetirdi.

Sağlamlığın qorunması. Məlumdur ki, pandemiya və epidemiyalar zamanı iştirakçıların sağlamlığı prioritet məsələyə çevrilir. Xəstəlik testi, sağlamlıq qaydaları və səhiyyə xidmətlərinə əlçatanlıq da daxil olmaqla sağlamlıq tədbirləri COP29-da öz həllini tapdı.

İqlim dəyişikliyi ilə əlaqədar keçirilə biləcək dinc aksiyalara qarşı tədbirlər də əvvəlcədən ehtimal olunduğundan Dövlət Təhlükəsizlik Xidmətinin, həmçinin digər hüquq mühafizə orqanlarının iştirakı ilə yüksək səviyyədə təmin olundu.

Logistika və nəqliyyat. COP29-da təhlükəsizlik, həm də təhlükəsiz nəqliyyat infrastukturlarına iştirakçıların vaxtında çatdırılmasında mühüm rol oynadı. Burada metropoliten də daxil olmaqla bütün strukturlar öz işini yüksək səviyyədə qura bildi. Bir sözlə, COP29-un təhlükəsizlik tədbirlərində Azərbaycan dövləti ev sahibi kimi bütün beynəlxalq standartlara uyğun olaraq, təşkilatçılıq məsələsini yerinə yetirdi. Bütün dünya etiraf etdi ki, COP-u ən yüksək səviyyədə təşkil etdik. Təbii, onu da göstərdik ki, cənab Prezident İlham Əliyevin Azərbaycan xalqı ilə birlikdə həyata keçirdiyi daxili və xarici siyasət müstəqil

və davamlıdır. Diqqətinizə görə təşəkkür edirik.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Çox vacib məsələlərə toxundunuz. Hələ Milli Məclisdə bu məsələ ilə bağlı çıxış edən yox idi. Çox sağ olun. Aydın Mirzəzadə. Buyurun.

**Aydın Mirzəzadə**. Təşəkkür edirəm, xanım sədr. Bu günlər Bakı iki möhtəşəm tədbirə ev sahibliyi etdi. Dekabrın 5-də Qərbi Azərbaycandan zorla çıxarılan azərbaycanlıların hüquqlarının qorunması ilə bağlı artıq ikinci dəfə beynəlxalq konfransın keçirilməsi Qərbi Azərbaycanın hüquqları məsələsinin tədricən beynəlxalq siyasətin gündəliyinə daxil olduğunu göstərir. Dünyanın 51 ölkəsinin ən nüfuzlu ekspertləri, universitet müəllimləri, tanınmış insanları, deputatları Qərbi Azərbaycan mövzusuna, azərbaycanlıların öz dədə-baba torpağına qayıtmaq hüququnun təsbit edilməsi məsələsinə öz münasibətini bildirdilər. Ermənistan rəsmi hakimiyyəti nə qədər Qərbi azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarına qayıtmaq fikrini öz daxili auditoriyasına buraxmaq istəməsə də, artıq erməni sosial şəbəkələrində bu məsələlər müzakirə edilir. Beynəlxalq hüquq azərbaycanlıların tərəfindədir. Beynəlxalq hüquq azərbaycanlıların öz dədə-baba torpağında yaşamaq hüququnu qoruyur və bu məsələdə Ermənistan öz mövqeyini dəyişməlidir. Cənab Prezidentimizin konfrans iştirakçılarına müraciətində də Yerevanın artıq Qərbi Azərbaycan icması ilə danışıqlara başlamasının vacibliyi bir daha vurğulandı. Təşkilatçıların tədbirin hər il dekabrın 5-də keçirilməsi ilə bağlı verdiyi məlumat göstərdi ki, Azərbaycan öz hüquqlarını bilir və bu istiqamətdə hərəkət edəcəkdir.

Hörmətli xanım sədr, eyni zamanda, dekabrın 7-də

parlamentin yaranmasının ildönümü ilə bağlı keçirilən tədbir də çox möhtəşəm oldu. 12-ə qədər ölkədən, hətta uzaq Efiopiyadan, İndoneziyadan nümayəndələrin gəlməsi Azərbaycanın dünyada qazandığı nüfuzun, bu gün beynəlxalq aləmdə oynadığı böyük rolun nəticəsidir. Çıxışlarda da bir daha Azərbaycana yüksək qiymət verildi. Azərbaycanla münasibətləri genişləndirmək bir daha həmin ölkə nümayəndələrinin marağına səbəb oldu. Belə tədbirin təşkilinə görə mən Milli Məclis rəhbərliyinə, şəxsən Sizə öz təşəkkürümü bildirirəm. Tacikistanda dostluq qrupunun üzvləri Tacikistan parlamentindən gələn nümayəndə ilə görüşdülər, Azərbaycanın uğurlarına yüksək qiymət verildi. Azərbaycanla münasibətlərin daim genişləndiyi, maraqlı olduğu bildirildi. Bütün bunlar dövlətçiliyimizin uğurlarını göstərir. Bu uğurlar 1992-ci il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başladı. Bu uğurlar 2003-cü ildə hörmətli Prezidentimiz cənab İlham Əliyevin apardığı uğurlu daxili, xarici siyasət nəticəsində əldə edildi. Azərbaycan layiq olduğu hörməti qazanıb. Azərbaycan müstəqildir, Azərbaycan müstəqil şəkildə öz daxili və xarici siyasətini yeridir. Heç kəs bizim daxili işlərimizə qarışa bilməz. Heç kəs bizə diktə edə bilməz. Azərbaycan siyasətini xalqının milli maraqlarına uyğun olaraq həyata keçirir. Bir müddət əvvəl müzakirə etdiyimiz büdcə layihəsi...

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Dediyiniz təşəkkür bizim hər birimizə düşür. Qonaqlarımızın belə geniş coğrafiyadan gəlməsi möhtərəm cənab Prezidentin apardığı xarici siyasətin bir təsdiqi və nümunəsidir. Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Hörmətli sədr, əziz həmkarlar.

BMT Baş Assambleyasının 1948-ci il 423-saylı Qətnaməsi ilə dekabrın 10-u İnsan Hüquqları Günü kimi qeyd edilir. Universal xarakter daşıyan insan hüquqları ən ali dəyər olsa da, təəssüf ki, ötən 76 ildə bu istiqamətdə ikili standartlar hökm sürüb.

Sirr deyil ki, 1991-ci ilə qədər insan haqları və demokratiya Sovet sistemi ilə mübarizədə əsas rıçaq kimi çıxış edirdi. Baxmayaraq ki, SSRİ-ni xalqlarının həbsxanası hesab edən Qərbin özündə hələ də irqi ayrı-seçkilik hökm sürməkdə və bütün qitələri əhatələyən böyük coğrafiyada xalqlar müstəmləkə zülmünə məruz qalmaqdadır. Sovet İttifaqının dağılması ilə isə Qərb insan haqlarını faktiki inhisarında olan təcavüz alətinə çevirib.

Bu gün dünyada harada qan tökülürsə, demokratiya və insan haqları adına edilir. Harada işğal və təcavüz varsa, bu adla pərdələnir. Amma saxtakar Qərb informasiya maşını və onun Azərbaycandakı tör-töküntüləri bu məsələni elə təqdim edirlər, sanki demokratiya cihadı edirlər. Məsələn, Kərimli adlı ünsür Sorosun maliyyələşdirdiyi muzdlu mediada hər gün Qərbin dəstəklədiyi Ukrayna hakimiyyəti və gürcü müxalifətini öyən məzmunsuz yazılar paylaşır. Düzdür, vay o qüvvənin halına ki, onun müdafiəçisi Kərimlidir, amma istənilən halda sən insan haqlarından danışırsansa, bir dəfə də Qlobal Bakı Prosesindən danış, Fransa müstəmləkələrindən yaz, bir dəfə ABŞ-ın Demokratlar iqtidarının törətdiyi faciələrdən danış.

Bu gün Rusiyanı tənqid etməyə nə var? Cəsarətiniz çatırsa, Qərbin ikili standartlarından, Ermənistana hərbi missiya göndərən Avropa İttifaqından danışın. Danışa bilmirsiniz, çünki danışmağa cəsarətiniz yoxdur. İndi Suriyada rejimin devrilməsindən fərəhlənirlər. Guya öz

ələmlərində əmsal gətirməyə çalışırlar. Ay yazıqlar, Azərbaycan xalqı bu prosesdən hələ 1993-cü ildə keçib. Hakimiyyəti zorla zəbt etmiş AXC–Müsavat iqtidarının rüsvayçı şəkildə tarixin zibilliyinə atılması elə əsl xalq hərəkatı, inqilabı idi. Sadəcə, Heydər Əliyev kimi müdrik bir liderin mövcudluğu bizdə prosesləri qansız-qadasız ötüşdürdü və məhz onun humanistliyi nəticəsində siz sağ qaldınız.

İndi gündəmə yeni siyasi məhbus tandemi atıblar. Kimdir siyasi məhbus? Jurnalist, yaxud siyasətçi olmaq ayrıcalıq sayılmalıdırmı? “Meydan TV” kimi muzdlu bir şəbəkənin qanunsuz əməllərinə görə “onlar jurnalistdir” deyib göz yummalıyıq? Yaxud kimsə Qərbin tezislərini “Facebook” səhifəsində paylaşmağı siyasi fəaliyyət kimi təqdim edəcəksə, həmin şəxs barəsində bütün əsaslı şübhələri kənara qoyub deyəcəyik ki, kişi siyasətçidir?

Son vaxtlar Qərbin bəzi səfirləri də bu prosesdə aktivləşiblər, amma 30 il milyon yarım azərbaycanlının haqqını görməzdən gələnlər hansı vətəndaşın müdafiəsində nə qədər səmimi ola bilər? Ona görə heç kim bizə nağıl danışmasın. Bu gün insan hüquqlarının ən səmimi müdafiəçisi 1 milyon məcburi köçkünün təməl haqlarını bərpa etmiş, 350 minlik Qərbi azərbaycanlının haqlarının müdafiəsinə qalxan, dünyada vaksin millətçiliyinin qarşısını alan, müstəmləkəçiliklə mübarizəyə liderlik edən Azərbaycan və onun Prezidenti cənab İlham Əliyevdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Zahid Oruc.

**Zahid Oruc.** Hörmətli sədr, beynəlxalq siyasi gündəliyi izləyərkən bir-birini sürətlə əvəzləyən qlobal toqquşmaların coğrafiyasının genişləndiyini, dünyanın yeni-

dən bölüşdürülməsinin həlledici mərhələyə daxil olduğunu görürük. 3 ilə yaxındır ki, davam edən Rusiya–Ukrayna müharibəsində ortamənzilli strateji silahların işə salındığı bir vaxtda Qəzzadan Livana, daha sonra Suriyaya yayılan savaş, nəhayət, hakimiyyət dəyişikliyinə səbəb oldu.

Qonşu Gürcüstanda parlament seçkilərindən sonra hakimiyyəti zorla dəyişmək istəyən Qərb dövlətləri küçə və meydan döyüşlərindən sonra silahlı toqquşmalara zəmin hazırlayır. Son günlər NATO Baş katibi Rutte gürcü hakimiyyətini ordunun müdaxiləsi ilə şantaj elədi. ABŞ, Avropa Birliyi Qızıl gül inqilabından sonra Gürcüstana sahiblik üçün xərclədiyi 20 milyard dolların hesabını tələb edir. Hakimiyyətin bütün qollarındakı təsir agentliklərini üsyana, siyasi itaətsizliyə qaldırırlar.

Bəli, Gürcüstanda gedən geosiyasi mübarizə yalnız bir ölkənin deyil, Qafqazın ələ keçirilməsi uğrundadır. Unutmayaq ki, xarici ticarətimizin 14 milyard dollardan çoxu Tbilisi üzərindən aparılır. Bakı–Supsadan Cənub qaz dəhlizinə qədər strateji layihələri, 300 mindən çox azərbaycanlının taleyini, 4 milyard dollardan çox sərmayəmizi, Türkiyə–Gürcüstan–Azərbaycan üçlüyünü nəzərə aldıqda geosiyasi döyüşlərin Bakı və Ankaranın birgə maraqlarına zərbə vurduğunu demək olar.

Göründüyü kimi, Qarabağ Zəfəri ilə təhlükəsizliyini və beynəlxalq mövqeyini gücləndirən Azərbaycanın əhatə olunduğu regionda qeyri-sabitlikdir, vətəndaş toqquşmaları və silahlı qarşıdurmalardır. Xalqımız uzun illər müharibələrdən əziyyət çəkdiyi üçün qazandığı tarixi qələbənin, Böyük Qayıdışın və yeni vətən quruculuğunun qədrini bilir. Yerləşdiyimiz bölgədə təhlükələrdən qorunmağın yalnız bir alternativsiz yolu var. Azərbaycan Prezi-

denti İlham Əliyev beynəlxalq toqquşmaların poliqonuna çevrilməməsi üçün ölkəmizi nə Qərbin, nə də qonşuların korpusuna çevirib, Brüssel və Strasburqdan, yaxud Şimal və Cənubdan gələn birtərəfli əmrlərdən qorunan müstəqil dövlət qurub, hakimiyyəti zorla dəyişmək planlarını iflasa uğradıb. Dəməşqdən sonra başqa ərəb dövlətlərində də Türkiyə yönümlü hakimiyyətlər qurula bilər. Lakin Yaxın Şərqdə qalib gəlib Cənubi Qafqazı əldən vermək olmaz. Xalqın iradəsi ilə Suriyada rejimi dəyişməyə beynəlxalq hüquq çərçivəsində kömək edən qardaş ölkənin üsyanın ilk olaraq başlandığı türkmənlərin, azərbaycanlıların yaşadığı Hələbdə olduğu kimi, Gürcüstanda da yüz minlərcə soydaşımızın mənafelərinin qorunmasında Azərbaycanın lideri İlham Əliyevin strategiyası ilə hərəkət edəcəyinə, Dəməşqdə qazanıb Tiflisdə və İrəvanda itirməyəcəyinə inanırıq. Suriyanın bütövlüyünü təmin etmək mümkün olsa, Azərbaycan və Türkiyənin yardımı ilə türkmənlər dövlət idarəçiliyinin bütün qollarında təmsil olunacaqlar. Daha sonra Zəngəzur dəhlizinin açılması, Naxçıvanın Bakı ilə quru yollarla birləşməsi Gürcüstan və Ermənistanı türk dünyasına qarşı çevirmək planına da zərbə vuracaq. Türkiyə və Azərbaycanın Yaxın Şərqdən Cənubi Qafqaza qədər böyük regionda növbəti qələbəsi olacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Jalə Əliyeva.

**Jalə Əliyeva.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri və media mənsubları. Azərbaycan parlamentinin 106-cı ildönümü münasibəti ilə ötən həftə keçirilən “Parlamentarizm: ənənələr və perspektivlər” mövzusunda beynəlxalq parlament konfransı Azərbaycan parlamentinin tarixində əhəmiyyətli bir hadisə idi. Konfransda xarici ölkələrin geniş arealda iştirakı, əlbəttə

ki, Prezident İlham Əliyevin dünyada durmadan artan böyük nüfuzunun və apardığı uğurlu siyasətin davamı kimi qiymətləndirilməlidir. Bu konfrans Azərbaycan parlamentinin tarixində əhəmiyyətli bir hadisə idi. Bu qürurverici tədbirin yüksək səviyyədə keçirilməsi və uğurlu bir nəticə alması münasibəti ilə, xanım sədr, başda Siz olmaqla bütün parlamentimizi təbrik edir, suveren Azərbaycanın parlamentinə daim nailiyyətlər arzulayıram.

Hörmətli həmkarlar, Ulu Öndər Heydər Əliyevin cismən bizdən ayrıldığı gündən 21 il keçir. Bu böyük şəxsiyyətin, bu nadir siyasətçinin xalqı və ölkəsi üçün etdikləri, canı bahasına, həyatı bahasına nail olduğu işlər, göstərdiyi xidmətlər o qədər böyükdür, o qədər ölçüyə gəlməzdir ki, bütün bunların hər birini bizə ayrılan bu qısa zaman kəsiyində əhatə etmək, əlbəttə ki, mümkün deyil.

Heydər Əliyev bir dahidir. Hər xalqa qismət olmayan, hər xalqın taleyinə yazılmayan bir dahi. Böyük bir xalqın yol göstərəni, xalqının qurtuluşuna imza atan, ölkəsini parçalanmaq, dünya xəritəsindən yox olmaq təhlükəsindən qurtaran bir dahi. Onun ən böyük arzusu xalqını azad, müstəqil, ölkəsini suveren və bütöv görmək idi. “Ömrümün qalan hissəsini də xalqıma bağışlayıram” – deyən Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqı və ölkəsi üçün çalışdı, onun gələcəyini düşündü. Son nəfəsində də ölkəsini və xalqını əmin əllərə tapşırdı. Bizə iki böyük miras ərməğan etdi. Müstəqil, azad, heç kimdən, heç bir təsirdən asılı olmayan bir ölkə, “Mən hər bir azərbaycanlının Prezidenti olacağam”, “Sözümüz imzamızdır!” – deyən dəmir iradəli bir rəhbər.

Ulu Öndər xalqına hər zaman doğru yolu göstərdi. Onun əbədiyyətə qovuşduğu günə qədər həllinə imkan

verilməyən və artıq tarixə çevirdiyimiz Dağlıq Qarabağ münaqişəsinə birdəfəlik son verə biləcək qəhrəmanı da bizlərə – Azərbaycan xalqına nişan verdi. Bəli, XX əsrin 90-cı illərinin başlarında Azərbaycanı yox olmaqdan məhz o – Ulu Öndər Heydər Əliyev xilas etdi. Dahi insan xalqının ona uzanan titrək, ümidsiz əllərini möhkəm sıxdı, xalqına dayaq durdu, arxa oldu.

XXI əsrin ikinci onilliyinin sonlarında isə onun hüquqi, fiziki və mənəvi varisi İlham Heydər oğlu Əliyev o zamana qədər mümkün olmayanı mümkün etdi, ölkəsinin və xalqının bütövlüyünün simvoluna çevrildi, böyük Zəfərə və bütün uğurlarımıza silinməz imzasını atdı, bizi yenidən Qarabağlı Azərbaycan etdi. Ulu Öndərin əbədiyyətə qovuşduğu bu hüznlü günlərdə onu bir daha dərin ehtiramla anır, ruhu qarşısında baş əyirik.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Ermənistan mediasında yayılmış məlumata görə, Avropa Şurası Parlament Assambleyasının Hüquq Məsələləri və İnsan Hüquqları üzrə Komitəsinin iclası bu gün İrəvanda keçirilir. Erməni deputatların verdiyi məlumata görə, iclasda guya Azərbaycanın Qarabağa və Ermənistana təcavüzü və onun humanitar nəticələri mövzusunda müzakirələr aparılır. Bu, çox təəssüfedici bir haldır. Çünki Avropa Şurası Parlament Assambleyası hələ də siyasi manipulyasiya aləti kimi istifadə olunur. Təcrübəyə görə, bu komitə iclasları adətən Strasburqda, yaxud da Parisdə keçirilirdi. Bunun İrəvanda keçirilməsi və anti-Azərbaycan xarakter alması göstərir ki, AŞPA yenə də bizə qarşı öz ikiüzlü, riyakar siyasətini davam etdirir.

Bu gün 10 dekabr – Beynəlxalq İnsan Hüquqları Günü

çərçivəsində bu müzakirələrin keçirilməsi, 30 il ərzində 1 milyona yaxın Azərbaycan vətəndaşının fundamental insan hüququnun pozulması ilə bağlı, üstəgəl, 350 min Qərbi Azərbaycan icmasının öz fundamental hüquqlarından, ev-eşiklərinə qayıtmaq hüququndan məhrum olunması barədə bir kəlmə belə danışılmaması bu məsələnin nə qədər ikiüzlü, riyakar olduğunu göstərir. Təbii ki, İrəvanda bu iclasın keçirilməsinin də başqa bir çaları var.

Bu mənə xatırlatdı ki, VI çağırış parlamentdə biz Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin iclaslarının rotasiya, yəni növbəlilik qaydasında Brüssel və Azərbaycanda keçirilməsini təklif edirdik. Ancaq o vaxt Avropa Parlamentinin Cənubi Qafqaz üzrə nümayəndəliyi həmişə müxtəlif bəhanələrlə iclasların Azərbaycanda keçirilməsindən imtina edirdi. İndi isə təcrübədən kənara çıxaraq Avropa Şurası Parlament Assambleyasının iclasının İrəvanda keçirilməsi bir daha onların ikiüzlü, riyakar siyasətini ifşa edir.

Ümumiyyətlə, son zamanlar Avropa institutlarının, Avropa İttifaqının Ermənistandakı missiyası, orada binokl diplomatiyasının intensivləşməsi, yəni postmünaqişə dövründəki münasibətlərimizə xələl gətirilməsi prosesində biz nəyi görürük? İnsan hüquqları, demokratik təsisatlar adı altında maskalanaraq daha çox siyasi manipulyasiya aləti kimi istifadə olunan və Azərbaycana qarşı təzyiq etmək istəyən Avropa institutları heç nəyə nail olmayacaqlar. Biz artıq yeni reallıq yaratmışıq, öz torpaqlarımız üzərində tam suverenliyimizi bərpa etmişik. Bizim güclü dövlətimiz, liderimiz var ki, dünyada səsimiz artıq ucadan gəlir. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tural müəllim. Siz elə

burada dediklərinizi sosial şəbəkələrdə, ümumiyyətlə, mediada dərc edə bilərsiniz. Günay Ağamalı. Buyurun.

**Günay Ağamalı.** Hörmətli xanım sədr, həmkarlar və media mənsubları. Hörmətli xanım sədr, çıxış üçün şərait yaratdığınıza görə Sizə təşəkkürümü bildirirəm. Azərbaycan dövləti yeni uğurlara imza atdıqca, dövlətimizin beynəlxalq nüfuzu yüksəldikcə ölkəmizi istəməyən anti-Azərbaycan və antimilli qüvvələr Azərbaycana qarşı şər-böhtan kampaniyalarını durmadan artırır, Azərbaycan reallığını, Azərbaycanın nailiyyətlərini həzm edə bilmirlər.

Azərbaycan həqiqətlərini özündə ehtiva edən və son bir neçə ayda əldə etdiyimiz nailiyyətlərimizin xronikası üzərində dayanmaq istərdim. Birincisi, Fransa və Niderlandın neokolonialist siyasətinin eybəcər nəticələrinin ifşasını Azərbaycanda başlayıb Avropada davam etdirən Bakı Təşəbbüs Qrupu ciddi nəticələrə imza atmaqda və geniş auditoriya qazanmaqdadır.

İkinci. 1 ay öncə keçirilən və dünyanı heyrətə gətirən COP29 Azərbaycanın gücünün, potensialının beynəlxalq səviyyədə nümayişi oldu. Biz belə bir məsuliyyətli missiyanı uğurla başlayıb uğurla da başa çatdıra bildik. Bu müvəffəqiyyətləri həzm etməyən məkrli qüvvələr hələ də COP29 ətrafında şər və böhtan kampaniyasını davam etdirməkdədirlər. Çoxsaylı mötəbər qonaqların da etiraf etdiyi kimi, COP29 çərçivəsində işin təşkili, təhlükəsizliyin təmin olunması, aparılan müzakirələrdə Azərbaycanın bütün institutlarının yüksək səviyyədə və peşəkarlıqla iştirakı, qəbul olunan sənədlər Azərbaycan dövlətinə, ölkəmizə böyük nüfuz gətirdi.

Üçüncü. Bu günlərdə soydaşlarımızın Qərbi Azərbaycana qayıdışı ilə bağlı keçirilən II Beynəlxalq konfrans

heyrətamiz ustalıqla təşkil olundu. Konfransda iştirak edən beynəlxalq səviyyəli hüquq müdafiəçilərinin, peşəkar hüquqşünasların, tarixçilərin və siyasətçilərin çıxışları bizdə əminlik yaratdı ki, artıq Qərbi Azərbaycandan olan soydaşlarımızın doğma yurdlarına qayıdışı problemi Azərbaycanın daxili auditoriyasından çıxaraq beynəlxalq müstəviyə qalxa bilmişdir. Bu, olduqca ciddi uğurdur və onun şəriksiz müəllifi möhtərəm cənab Prezident İlham Əliyevdir.

Dördüncü. Bir neçə gün öncə parlamentimizin 106-cı ildönümü ilə bağlı keçirilən beynəlxalq konfransın təşkili də hər birimizdə böyük qürur hissi yaratdı. Azərbaycana gələn xarici qonaqların qısa zaman kəsiyində ölkəmizin çatdığı zirvələr haqqında danışması həqiqətin etirafı idi. Bütün bunlar bir daha sübut edir ki, dövlətimiz Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yolla inamla irəliləməkdə və Azərbaycanı dünyanın lider ölkələri sırasına çıxarmaqdadır. Budur Azərbaycan həqiqətləri. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ceyhun Məmmədov.

**Ceyhun Məmmədov.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Öncə mən də Sizi və həmkarlarımı “Parlamentarizm: ənənələr və perspektivlər” mövzusunda beynəlxalq parlament konfransının uğurlu təşkili münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Bir neçə gündən sonra Azərbaycan xalqı tarixinin önəmli günlərindən birini – Ulu Öndərin anım gününü qeyd edəcək. 1990-cı illərin əvvəllərində Azərbaycan xalqı müstəqilliyini bərpa edərək ən böyük arzularından birinə çatdı. Ancaq qısa müddət sonra çox ciddi sınaqlarla üz-üzə qaldı. Bir tərəfdən, Qarabağ müharibəsi, digər tərəfdən, daxili çəkişmələr, xarici təsirlər nəticəsində

separatizm meyillərinin artması, iqtisadi tənəzzül ölkəni ciddi dilemmalarla üz-üzə qoymuşdu. İnsanlar ölkənin gələcəyi ilə bağlı inam və ümidlərini itirmişdilər. Artıq ağrılı bir layihənin icrasına – Azərbaycanın bir neçə yerə bölünməsi prosesinə başlanılmışdı. Ölkə elə bir həssas və təhlükəli mərhələyə qədəm qoymuşdu ki, müstəqilliyini belə itirə bilərdi. Həmin dövrdə hamının dediyi bir söz var idi: "Azərbaycan xalqını bu ağır vəziyyətdən yalnız Heydər Əliyev xilas edə bilər".

Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gələrək Azərbaycan xalqını üzləşdiyi ciddi bəla və sınaqlardan xilas etdi. Qısa müddətdə Ermənistanla atəşkəsə nail olundu, Azərbaycanın gələcək inkişafı üçün xüsusi əhəmiyyət daşıyan neft müqavilələri imzalandı, güclü dövlət və ordu quruculuğuna başlanıldı, ölkədə ictimai və siyasi sabitlik təmin olundu. Məhz bugünkü uğurların və zəfərlərin təməli o dövrdə qoyuldu.

Ulu Öndər Heydər Əliyev bütün çıxışlarında Azərbaycan xalqının tarixi qələbəyə mütləq nail olacağını, işğal altında olan torpaqlarımızın tez bir zamanda azad olunacağını davamlı olaraq vurğulayırdı.

Prezident İlham Əliyev bu siyasəti böyük uzaqgörənliklə davam etdirərək Azərbaycanın müstəqilliyini daha da gücləndirdi, dünyada nüfuzunu daha da artırdı, ata vəsiyyətini yerinə yetirərək torpaqlarımızı azad etdi, böyük Ermənistan xülyasına son qoydu. Həmin siyasət nəticəsində bu gün Azərbaycan tarixdə heç zaman olmadığı qədər güclü, bütöv və müstəqildir.

Bu gün Ulu Öndərin ruhu şaddır. Çünki onun bütün arzuları artıq həyata keçib. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla

addımlayır. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Gündəliyimizdə bu gün 15 məsələmiz var. 1-ci məsələ Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında qərar layihəsidir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, komissiyanın Əsasnaməsinə görə, onun 5 üzvü Milli Məclis tərəfindən təyin edilməlidir. Eyni zamanda, düşünürəm ki, xatırlayırsınız, oktyabrın 22-də biz bu Əsasnaməyə dəyişiklik etdik. Həmin dəyişikliyə əsasən komissiyanın Milli Məclis tərəfindən müəyyən olunan üzvləri deputatlar, Hesablama Palatasının üzvləri və Milli Məclis Aparatının rəhbərliyi sırasından seçilir. Bu müddəaya uyğun olaraq, komissiyanın üzvlüyünə Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov, komitə sədri Arzu Nağıyev, deputat Əminə Ağazadə, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov və Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyevin namizədlikləri təqdim edilir.

Hörmətli həmkarlar, əgər ayrı fikir yoxdursa, mən məsələni səsə qoyacağam. Ayrı fikir yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi. Mən komissiyanın üzvlərini təbrik edirəm və onlara uğurlar arzulayıram.

Hörmətli həmkarlar, gündəliyin növbəti 6 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Qeyd edim ki, növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. İndi gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsində hər hansı bir dəyişiklik olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. Sualı, sözü olan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 3-cü məsələ "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən sözü hörmətli Bəhruz Məhərrəmova verirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Əvvəlki oxunuşlarda layihənin mahiyyəti ilə bağlı heç bir xüsusi təklif və tövsiyə olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə daha iki komitədə baxılmışdır. Birinci komitə İnsan hüquqları komitəsidir. Mən indi komitənin sədri hörmətli Zahid Oruca söz verirəm. Zahid müəllim, komitənin rəyini bildirin. Buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Layihə ilə bağlı komitənin rəyi müsbətdir, olduğu kimi səs vermək olar. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. İkinci komitə Ailə, qadın və uşaq məsələləri komitəsidir. Hörmətli Hicran xanım, xahiş edirəm, buyurun, rəy bildirin.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, bizim komitəmizdə də baxılıb. Əlavə rəy, təklif yox idi. Xahiş edirik, qəbul olunsun. Sağ

olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə* mübarizə *komitəsinin sədri.*

Təşəkkür edirəm, xanım sədr. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilib. Səs verməyinizi

xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.40 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Arzu müəllim, xahiş edirəm, bu layihə haqqında məlumat verin.

**Arzu Nağıyev.** "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının qanun layihəsi üçüncü oxunuşda baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Sualı, sözü olan yoxdur. Qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Regional məsələlər komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitə sədrinin müavini hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Regional məsələlər komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hər iki oxunuş zamanı layihə barədə geniş məlumat verilmişdir. Layihənin mətnində heç bir dəyişiklik yoxdur, olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Mən komitənin sədri hörmətli Azər Əmiraslanovdan xahiş edəcəyəm, komitənin rəyini bildirsin. Buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli xanım sədr, layihə komitəmiz tərəfindən dəstəklənir. Səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 112 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti 7-ci məsələ "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Arzu müəllim, xahiş edirəm, məlumat verin. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Qanun layihəsi üçüncü oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə komitəmiz tərəfindən tövsiyə olunur. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Sualı olan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi uyğunlaşdırma xarakteri daşıyır, odur ki, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun tələblərinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək. Biz indi 8-ci məsələyə keçirik. Bu məsələ “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” 2024-cü il 7 may tarixli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün hörmətli Tahir Rzayevə söz verirəm. Buyurun, Tahir müəllim.

**Tahir Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli deputat həmkarlar. Təqdim olunan qanun layihəsi “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli Qanununun icrası ilə əlaqədar hazırlanmışdır. Uyğunlaşdırma xarakterlidir.

Adıçəkilən qanunun 8.3-cü maddəsinə əsasən süni torpaq sahəsi onun yaradılmasının başa çatdığı gündən dövlət mülkiyyəti hesab olunur. Bu müddəaya uyğun olaraq, Torpaq Məcəlləsinin 46-cı və “Torpaq icarəsi haqqında” Qanunun 5-ci maddələrində dəyişiklik təklif olunur. Bu torpaqların dövlət torpağı olaraq statusu təsdiq edilir. Bu torpaq sahələri üzərində hüquqların yaranmasının, həmin torpaqların istifadəyə və icarəyə verilməsinin “Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına

mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında” Qanuna uyğun tənzimlənməsi ilə bağlı Torpaq Məcəlləsinə, “Torpaq icarəsi haqqında” və “Torpaq bazarı haqqında” qanunlara müvafiq dəyişikliklər təklif olunur. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, biz müzakirəyə keçə bilərik. Amma heç kim yazılmayıb. Əgər heç kimin sözü yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 9-cu məsələsi “Elm haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Elm və təhsil komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Anar İsgəndərova söz verirəm. Anar müəllim, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Anar müəllim, çox sağ olun. Çıxış etmək

istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.47 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, gündəliyin növbəti 4 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Mən yenə də xatırladıram ki, çıxışlarda birinci oxunuşun tələbləri nəzərə alınsın.

Gündəliyin 10-cu məsələsinə keçirik. Bu məsələ "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məlumat vermək üçün, Azər müəllim, Sizdən xahiş edəcəyəm. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ödənişli avtomobil yollarından istifadə sahəsində qanunvericiliyin təkmilləşdirilməsini və ödənişli avtomagistral yollardan istifadə qaydalarını pozan şəxslərin məsuliyyətinin hüquqi əsasının yaradılmasını nəzərdə tutur. Bu məqsədlə avtomobil yolları istifadəçilərinin məsuliyyətini nəzərdə tutan 50-ci maddəyə ödənişli avtomobil yollarından qanunsuz istifadə ilə bağlı iki hüquq pozuntusu halı daxil edilir. Bunların birincisi, ödəniş məntəqələrindən

keçmədən kənar yollardan, yerlərdən istifadə etməklə, habelə ödənişsiz gediş hüququna malik istifadəçilər üçün müəyyən edilmiş xidməti keçid zolağından belə hüququ olmayan istifadəçilər tərəfindən ödənişli avtomagistrallara daxil olmağa və ya oradan çıxmağa görə haldır.

İkincisi, buraxılış məntəqələrinin normal işinə mane olmağa, o cümlədən buraxılış məntəqələrində nəqliyyat vasitələrinin keçidini bağlamağa, gediş üçün maneəni özbaşına götürməyə görə olan haldır. Həmçinin inzibati məsuliyyətə səbəb olan bu halların tətbiqi zamanı hüquqi müəyyənliyin olması üçün qanuna 2 yeni anlayış – "ödəniş məntəqələri" və "buraxılış məntəqələri" anlayışları daxil edilir.

Qanun layihəsinin qəbulu ödənişli yoldan qanunsuz istifadənin qarşısının alınmasına, hərəkət iştirakçılarının ödənişli yoldan istifadə sahəsində məsuliyyətinin artmasına xidmət edəcəkdir. Qeyd edilənləri nəzərə alaraq deputat həmkarlarımızdan qanun layihəsinin birinci oxunuşda dəstəklənməsini xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Müzakirəyə yazılan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Mahiyyətcə də bir-birinə yaxındırlar. 11-ci məsələ "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Qanunda, 12-ci məsələ isə Ailə Məcəlləsində, daha iki məcəllədə və üç qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Odur ki, təklif edirəm, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, müzakirəsini aparaq, sonra isə ayrılıqda səsverməni keçirək.

Qeyd edim ki, layihələrə üç komitədə baxılmışdır. Mən indi həmin komitələrin təmsilçilərinə söz verəcəyəm. 11-ci məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**Bəhruz Məhərrəmov.** Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Konstitusiyasının 17-ci maddəsinə müvafiq olaraq, dövlət valideynlərin uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək borcunun yerinə yetirilməsinə və uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət edir. Eyni zamanda, valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar isə dövlətin himayəsindədirlər.

Bu gün müzakirəmizdə olan "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Qanunda dəyişikliklə bağlı qanun layihəsi də ilk növbədə

konstitusion müddəaların daha səmərəli realizəsinə yönəlib və özlüyündə üç vacib istiqaməti ehtiva edir.

Birincisi, "yetkinlik yaşına çatmayan" ifadəsi "uşaq" ifadəsi ilə əvəz edilir. Bu, ilk növbədə Əsasnaməni milli qanunvericiliyə və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrə uyğunlaşdırmaq zərurətindən irəli gəlir. Eyni zamanda, bu istiqamətdə fəaliyyət dairəsinin sərhədlərini konkretləşdirir.

İkincisi, təklif edilən dəyişikliklərlə yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə, yeni versiyada desək, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların təşkili və fəaliyyətinə dair müddəalar daha da təkmilləşdirilir. Bu məqsədlə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların tərkibi, fəaliyyətinin təşkili və hesabatların verilməsini ehtiva edən 3-cü maddə, yerli komissiyaların səlahiyyətlərini əhatələyən 5-ci maddə, inzibati xətalar haqqında işlərə komissiyalar tərəfindən baxılmasına dair 8-ci maddə, hüquq pozuntusu törətmiş uşaqlar barədə tətbiq edilən intizam təsir tədbirləri və fərdi profilaktik işlə bağlı 9-cu maddə tam yeni və təkmil redaksiyada verilir ki, bu da cari tənzimləmənin səmərəliliyinin daha da artırılmasını hədəfləyir. Məsələn, dəyişikliklə müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiyanın cari işlərinin görülməsi və qərarlarının icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə müvafiq katibliyin konkret vəzifələri müəyyənləşir. Habelə mövcud münasibətlər sisteminin dinamikasına müvafiq olaraq, yerli komissiyaların fəaliyyət istiqamətlərinə dair yeni tələblərə uyğunlaşdırılır.

Bundan başqa, hüquq pozuntusu törətmiş uşaqlar barədə tətbiq edilən intizam təsir tədbirləri və fərdi pro-

filaktik işin daha təkmil formada qurulması üçün yaradılan mexanizmlərin sayı artırılır.

Nəhayət, üçüncüsü, hazırkı dəyişikliklər dövlət qayğısına ehtiyacı olan əhalinin həssas qrupuna aid şəxslərlə bağlı ortaya çıxan bu sahədə münasibətləri daha səmərəli tənzimləməyə imkan verir və bu sahədə hesabatlılığın və məlumatlılığın artmasını təmin edəcək. Layihədə digər dəyişikliklər isə dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır. Qeyd edilənləri əsas gətirərək dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bu məsələyə, hörmətli Hicran xanım, sizin komitənizdə baxılıb. Xahiş edirəm, bu məsələ haqqında komitənin rəyini bildirin. Eyni zamanda, hörmətli həmkarlar, biz 12-ci məsələyə də keçəcəyik. Bu məsələyə də Ailə, qadın və uşaq məsələləri komitəsində baxılıb. Bu haqda isə xahiş edirəm, ətraflı məlumat verin. Buyurun.

**Hicran Hüseynova.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri. Bəhruz müəllim ətraflı məlumat verdi. Lakin mən qanunla bağlı əlavələr etmək istərdim. Ona görə ki, biz bu qanunu çoxdan gözləyirdik. Çox minnətdaram ki, bu qanunla bağlı Prezident Administrasiyasından belə bir təklif gəldi.

Həmin sənəddən irəli gələrək Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, mən qeyd etmək istərdim ki, uşaq hüquqlarının müdafiəsi ölkəmizdə dövlət uşaq siyasətinin tərkib və önəmli bir hissəsidir. Ümum-

milli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti dövlət başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi qayğısı və diqqəti nəticəsində daha da gücləndirilmişdir.

Ötən illər ərzində uşaqların həyatı, onların hüquqlarının müdafiəsi, inkişafı ilə bağlı çox böyük işlər görülmüş, güclü qanunvericilik bazası yaradılmışdır. Qeyd etmək istərdim ki, yeni reallıqlar və çağırışlar fonunda uşaq hüquqlarının müdafiəsi sahəsi ildən-ilə təkmilləşir. Çoxlu sayda yeni qanunlar qəbul edilir, mövcud qanunlara əlavə və dəyişikliklər olunur.

"Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi uşaqların hüquqlarının müdafiəsi və onların maraq və mənafelərinin qorunması baxımından çox vacibdir. Layihəyə əsasən "yetkinlik yaşına çatmayan" ifadəsi "uşaq" ifadəsi ilə əvəz edilir. Bu, çox vacib bir dəyişiklikdir. Çünki uşaq hüquqlarının müdafiəsinin vahid və sistemli hüquqi bazasının formalaşması baxımından qanunvericilikdə "yetkinlik yaşına çatmayan" ifadəsinin dəyişdirilməsi vacib əhəmiyyət kəsb edir. Gələcəkdə digər normativ hüquqi aktlarda da bu ifadənin nəzərdən keçirilməsi məqsədəmüvafiq olardı.

Bildiyiniz kimi, yerli icra hakimiyyətlərində Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları fəaliyyət göstərir. Qəyyumluq və himayə orqanının işinin təşkili üzrə qanunvericilikdə aydın göstəriş olmadığından təcrübədə icra hakimiyyətlərində

fərqli yanaşmaların olduğu müşahidə olunur.

Yerli səviyyədə uşaq məsələləri ilə məşğul olan iki ayrı qurumun mövcudluğu ölkədə institusional baxımdan uşaq müdafiə mexanizmini mürəkkəbləşdirir. Komissiyaların maddi-texniki bazasının zəif olması, qəyyumluq və himayə orqanlarının əsasnaməsinin günün tələblərinə cavab verməməsi uşaq müdafiəsinin yerli səviyyədə operativ təminatında, dövlət uşaq siyasətinin həyata keçirilməsində bir sıra problemlər yaradır. Bu baxımdan təqdim olunan qanun layihəsi xüsusi əhəmiyyət kəsb edir.

Qanun layihəsinə əsasən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə qurum "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiya" adlanacaqdır. Qəyyumluq və himayəçilik orqanının uşaqlar (himayədar ailəyə verilmiş uşaqlar, habelə valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar istisna olmaqla – bunlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə aiddir) üzərində funksiyalar Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaya həvalə edilir.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiyanın cari işlərinin görülməsi və qərarlarının icrasına nəzarətin həyata keçirilməsi müvafiq icra hakimiyyəti orqanında yaradılan katiblik tərəfindən təmin edilir. Yerli komissiyalar gördükləri işlər barədə ildə 4 dəfə katibliyə hesabat təqdim edirlər. Katiblik hesabatları ümumiləşdirərək Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiyaya təqdim edir.

Xüsusi qeyd etmək istərdim ki, təqdim edilən dəyişikliklərlə hər hansı yeni bir komissiya yaradılmır. Təklif edilən dəyişikliklər hazırda fəaliyyətdə olan komis-

siyalarla əlaqəli ortaya çıxan münasibətləri və digər aidiyyəti məsələləri daha səmərəli tənzimləmək və bu sahədə hesabatlılığın və məlumatlılığın şəffaflığının artırılmasını təmin etmək, sadalanan münasibətlərin iştirakçıları olan subyektlər arasındakı məsələləri yeni yanaşmalar əsasında nizamlamaq zərurətindən irəli gəlir.

Layihədə müvafiq icra hakimiyyəti orqanı yanındakı komissiyanın cari işlərin görülməsi və qərarların icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə yaradılan müvafiq icra hakimiyyəti orqanındakı katibliklə bağlı müddəalar yenidir. Beləliklə, əhalinin həssas qrupu ilə əlaqədar təklif edilən hazırkı dəyişikliklər uşaq hüquqlarının müdafiəsi ilə bağlı əlaqələndirmə mexanizminin gücləndirilməsini təmin edəcəkdir.

Hörmətli xanım sədr, bu qanun layihəsi komitəmizin iclasında Milli Məclis Aparatının müvafiq şöbələrinin və aidiyyəti üzrə dövlət qurumlarının məsul şəxslərinin iştirakı ilə müzakirə olunmuşdur. Layihə birinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

12-ci məsələ ilə bağlı demək istəyirəm ki, təklif edilən dəyişikliklər burada da yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır. Layihəyə əsasən Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və üç qanunda, yəni “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında”, “İnsan alverinə qarşı mübarizə haqqında” və “Məişət zorakılığının qarşısının alınması

haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi nəzərdə tutulur. Dəyişiklikliyə əsasən uşaqlar üzərində qəyyumluq və himayəçilik orqanının funksiyalarını uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirəcək. Bundan başqa, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar öz səlahiyyətləri daxilində təhsil müəssisələrində, habelə mülkiyyət və təşkilati hüquq formasından asılı olmayaraq yetkinlik yaşına çatmayanların işlədikləri müəssisələrdə, təşkilatlarda və idarələrdə onlar arasında tərbiyə işinin təşkili və monitorinqini də həyata keçirəcəklər. Burada sadalanan məsələlər uşaq hüquq və maraqlarının qorunması sahəsində müdafiə mexanizminin daha da güclənməsi baxımından çox vacib dəyişikliklərdir. Layihədəki digər dəyişikliklər də dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır. Qeyd edim ki, bu məsələ də bizim komitəmizin iclasında müzakirə edilib, ətraflı çıxışlar olub, amma dəyişikliklər əlavə olunmayıb. Ona görə də xahiş edirəm, səsə qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım.

Hörmətli həmkarlar, 12-ci məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Bəhruz müəllim, Sizdən xahiş edəcəyəm, 12-ci məsələ haqqında komitənin rəyini bildirin. Buyurun.

**Bəhruz Məhərrəmov**. Təşəkkür edirəm, xanım sədr. Komitəmiz lehinədir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Sağ olun. İnsan hüquqları komitəsində hər iki layihəyə baxılıb. Zahid müəllim, mən xahiş edirəm, hər iki layihə haqqında komitənin rəyini bildirin. Buyurun.

**Zahid Oruc**. Təşəkkür edirəm. Hörmətli sədr, cari məsələlərin müzakirəsində, doğrusu, çıxışa imkan olmur, amma 106 illiklə bağlı keçirilən beynəlxalq konfransa

burada iştirak edən insanlar bir çox aspektlərdən dəyər vermiş olacaqlar. Bu öz qiymətini zamanla daha da ali səviyyədə almış olacaq. Mənim aləmimdə məqsəd dövlətimizin 106 il üç fərqli formasiya ilə keçən həyatını, tarixini dünyaya göstərmək, nümayiş etdirməklə yanaşı... Biz 2018-ci ildə 100 illikdən danışanda əsas hədəfimiz torpaqlarımızın azadlığı idi. İndiki dövrdə isə çıxış edən hər bir xarici parlamentari tribunadan qələbəmiz, qalib dövlətimiz, qalib xalqımız haqqında danışırdı. Bu mənada Azərbaycanın azad torpaqlarına səfərlər dövlət və parlament protokolunun ayrılmaz hissəsinə çevrilib. Bu konfrans böyük, uğurlu siyasi hadisə idi, parlament hadisəsi idi. Bu münasibətlə, birinci, onu uğurlu təşkil etməyi bacardığınıza görə Sizə təşəkkür edirik, təbrik edirik. Hamımızı təbrik edirik.

Hörmətli sədr, burada iki komitə sədri məlumatlar verib. Mən onları təkrar etmədən bir neçə vacib məqamı vurğulamaq istəyirəm.

1. Gerçəkdən də, uşaqlar milli sərvətimizdir, genefondumuzdur, demoqrafik sərvətimizdir, millətimizin gələcəyidir.

2. Məlumat üçün deyim ki, 17 yaşa qədər uşaqlarımızın sayı 2 milyon 634 mindir. Bu rəqəm bölgə xalqları sırasında əhali artımı baxımından müsbət tendensiyadır. İndi məktəblərə gedən birinci sinif uşaqları ilə bağlı qısa bir məlumatı deməyə çalışacağam. Hörmətli Bəhruz müəllim Konstitusiyada dövlətin uşaqlarımız qarşısında olan öhdəlikləri barədə qeyd etdi. Eyni zamanda, uşaq strategiyası hazırlanıb. Bu layihə də onun tərkib hissəsidir.

Başqa bir məsələ. Həqiqətən, 2024–2025-ci illərdə birinci sinifə gedən uşaqların sayı 132 min olub. Ondan

əvvəlki il bu rəqəm 137 min təşkil edib. Amma demoqrafik balansda belə dəyişmələr özünü göstərib. Bəziləri bunu pandemiya və sair amillərlə bağlayır. Hər halda bunun səbəblərini hökumət qurumlarının iştirakı ilə daha geniş müzakirə etmək olar.

Layihə ilə bağlı. Əvvəla, "uşaq hüquqlarının müdafiəsi" termini beynəlxalq konvensiyalarda öz əksini tapıb. Nə yaxşı ki, qanunvericilik sistemimiz tamamilə ona uyğunlaşır və "yetkinlik yaşına çatmayanlar" termini artıq dövriyyədən çıxmış olacaqdır.

Komissiyaların yanında ilk növbədə 9-11 nəfərdən ibarət katiblik yaradılır. Burada Hicran xanım bu məsələyə toxundu. Bütün icra hakimiyyətlərinin strukturunda bir nəfər məsul katib, bir nəfər psixoloq yetkinlik yaşına çatmayanlarla, – artıq qüvvəyə minəcək termin ilə deyək, – yəni uşaq hüquqlarının müdafiəsi ilə bağlı iki nəfər şəxs çalışır. Eyni zamanda, qəyyumluq və himayəçilik üzrə fəaliyyət. İndi katiblik Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yanında yaradılır. Sahəvi olaraq, fəaliyyəti baxımından dövlət siyasətinə cavabdehlik daşıyan qurum kimi bu, tamamilə doğrudur. Burada kim isə deyə bilər ki, icra hakimiyyətlərinin yanında bu fəaliyyət bizim arzu etdiyimiz tələblər səviyyəsində qurula bilmir. Bir tərəfdən, bəlkə struktur vahidi kimi azdır. Uşaqlarımızın sayı bölgələrdə və paytaxtda, təbii ki, çoxdur. Onların hamısını əhatə etmək mümkün deyil. Burada müxtəlif problemləri qaldırmaq olar. Elə məqsəd də ondan ibarətdir ki, siyasəti vahid mərkəzdən təşkil etmək mümkün olsun və sabah cavabdehlik də uyğun təşkil oluna bilsin.

Burada katibliyin fəaliyyəti ilə bağlı məsələlər qeyd

olundu: tam reqlamenti verilibdir, hesabatların rüblük və illik olaraq dərc olunması, komissiyaların məlumatlarının 3 gündən sonra bu katibliyə verilməsi, çıxarılan qərarlar. Bu, çox önəmli bir məsələdir. Bəzən bölgələrdə bir uşağın problemi qloballaşdırılır və dövlət əleyhinə bir təbliğat alətinə çevrilir. Amma biz açıq deməliyik ki, bu işin bütün səviyyələrdə təşkilinin bütün qayğılarını yenə də dövlətimiz daşıyır və bu sahədə də çox böyük işlər həyata keçirilir.

Yuvenal məhkəmə sistemi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi çox maraqlı bir ifadəyə toxundu. O bizim komitə iclasında iştirak edirdi. Bir çoxları uşaq məhkəmələrindən, qanunvericiliyin bir hissəsi olan inzibati və digər cinayət məsuliyyətinin tədbirlərindən bəhs etdilər. Gördüyünüz kimi, beynəlxalq qanunvericilikdə üzr istəmə cəza növü kimi çıxarılıb. Bizim qanunvericilikdə bu da əksini tapıb. Bir sözlə, 12-ci məsələdə də oxşar mövzular qoyulubdur, çox vacibdir, dövlətimizin məramını özündə ifadə edir. Ona görə də əminəm ki, müzakirələrdən sonra qəbul olunacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. İndi müzakirəyə keçirik. Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən təqdim olunan hər iki qanun layihəsinə, ilk növbədə, terminologiya və dil baxımından münasibətimi bildirmək istəyirəm. Doğrudan da, hüquqi termin uşaqlara münasibətdə yetkinlik əlamətinə görə olmamalıdır. Yəni cinsi yetkinliyə çatmamış şəxslərin uşaq adlandırılması, hesab edirəm ki, həm hüquqi termin olaraq, həm də əlamətinə, semantik məzmununa görə daha doğrudur. Biz uşaq deyilik, nə dediyimizi başa düşürük.

Ona görə də mən düşünürəm ki, "yetkinlik yaşına çatmayan" ifadəsinin "uşaq" ifadəsi ilə dəyişdirilməsi tamamilə doğrudur.

İkinci məsələyə münasibətdə ayrı bir faktora diqqət çəkmək istəyirəm. Bu nədən ibarətdir? Doğrudan da, uşaq hüquqlarının qorunması vacibdir. Çünki bu gün onların yaşadığı mühitdə hüquqlarının qorunmasını zəruri edən şərtlər var və bu şərtlərin içərisində komissiyaların yaradılması, onların əsasnamələrinin təsdiq olunması vacibdir. Biz həmişə uşaqların tərbiyəsindən, onların fərd olaraq sosial mühitə qədəm qoyub yetkinləşməsi mərhələsindən danışanda, – bu yetkinləşmə mərhələsi, uşağın ictimai münasibətlərdə əldə etdiyi keyfiyyətlər onun şəxsiyyət tərəfini təyin edir, – həmişə üç faktor qeyd olunur: genetik, sosiogen və biogen faktorlar. Lakin yaşadığımız dövrdə uşaqların şəxsiyyət kimi formalaşmasına yeni bir faktor da təsir edir. Bu, infogen faktordur. Yəni informasiya mühiti yeni sosial faktor olaraq uşağın keyfiyyətini, onun hüquqlarına münasibəti təyin edir və cəmiyyəti daha çox səfərbər edir ki, uşaq hüquqlarına daha ciddi yanaşsınlar. Əgər biz yeni nəsil uşaqları gələcəkdə məhz ənənəvi cəmiyyətimizin, yəni homosapiensin davamçıları kimi görmək istəyiriksə, bu qanunun qəbul edilməsi çox zəruridir. Əks təqdirdə bu infogen təsir uşaqları bizdən oğurlayaraq onları homoinformatikus edəcəkdir. Yəni onlar, sadəcə, ünsiyyətdə olduqları informasiya mühitinin yetişdirdiyi şəxsiyyət olacaqdır, özlərini oxşadacaqlar. Ona görə mən düşünürəm ki, bu qanun çox aktualdır və çox yerində olan bir qanun layihəsidir. Əsasnamələrin, xüsusi olaraq komissiyaların, onun tərkibinin yaradılması vacib məsələdir.

Hazırkı tarixi mərhələdə ayrı bir şey də var. Bu nədən ibarətdir? İnformasiya mühitinin təkcə uşaqlara deyil, həm də böyüklərə təsiri məsələsi. Biz bilirik ki, uşaqların hüquqlarının qorunması onların əldə etdiyi informasiyanın keyfiyyəti ilə də bağlıdır. İnternet üzərindən çoxsaylı multiplikasiya, cizgi filmləri təqdim olunur. Onların böyük əksəriyyəti, hətta deyərdim ki, mütləq əksəriyyəti Azərbaycanın ictimai münasibətlərinin, cəmiyyətinin və mədəniyyətinin məhsulu olan təsir vasitələri deyil. Bunlar Azərbaycana idxal edilən məhsullardır. Biz də heç bir məhdudiyyət tətbiq etmədən uşaqları məhz o ünsiyyət platformaları ilə üz-üzə qoyuruq. Beləliklə, nə baş verir? Bu filmlərdə təqdim olunan manipulyativ informasiyalar uşaqların beyninə həkk olunur. Bu infogen təsir, ilk növbədə, buradan başlayır. Gözün görmə surəti saniyədə 24 kadrdır. Yəni biz hər hansı nəsnəni izləyəndə bir saniyədə 24 kadr sürəti ilə görürük. 25-ci kadrda isə bu cür filmlərdən insanın, xüsusilə uşaqların şüuraltına xitab edən lazımsız, neqativ informasiyalar ötürülür. Biz uşaqları bu informasiyanın təsirindən qoruya bilmirik. Bunun adı subliminal mesajdır, yəni 25-ci kadr effekti ilə uşaqların beyninə ötürülən informasiya subliminal mesaj olaraq onun beyninə həkk olur. Beləliklə, müəyyən mərhələdən sonra biz uşaqlarımızla ünsiyyət, əlaqə qura bilmirik. Hamısı bu təsir vasitələrinin yaratdığı effektdir. Ona görə də mən düşünürəm, bu komissiyalara səlahiyyət vermək lazımdır ki, gələcəkdə uşaqlarımızın oynadığı oyuncaqlardan tutmuş baxdıqları cizgi filmlərinə qədər hər bir şeyi milli idrakımızın süzgəcindən keçirilsin. Məsələn, "Barbi" kuklaları, matryoşkalar var. Bizim uşaqlar bu oyuncaqlarla oynadıqca daha çox onlara bənzəyirlər.

Amma nədənsə bizim Göyçək Fatmanın, Tıq-tıq xanımın, Cırtdanın və sairin oyuncaqları hazırlanmır.

Azərbaycan Prezidentinin də burada qeyd etdiyi kimi, gənc nəsli tərbiyə edən birinci ailə mühitidir, ikinci məktəbdir, sonra ictimai mühitdir. Doğrudan da, bu gün qloballaşmaya qarşı milli keyfiyyətlərimizi, milli idrakımızı, milli düşüncə tərzimizi və milli mədəniyyətimizi qorumaq istəyiriksə, düşünməliyik, uşaqlarımız nə ilə ünsiyyətdədir, gələcəkdə onların şəxsiyyəti necə formalaşacaq ki, bizim əcdadımızdan bizə miras qalan bu dövləti, bu günə qədər qoruyub gətirdiyimiz mədəniyyəti onlar da qoruya bilsinlər. Ona görə də mən düşünürəm ki, təqdim olunan qanun layihələri, əslində, bu istiqamətdə atılan birinci addımdır. Mən bu qanun layihələrinə səs verəcəyəm. Amma düşünürəm ki, gələcəkdə dediyim istiqamətdə də yeni qanunvericilik təşəbbüsü ilə çıxış edə bilərik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən sözü hörmətli Əli Əhmədova verirəm. Əli müəllim, buyurun.

**Əli Əhmədov.** Təşəkkür edirəm. Mən də qanun layihələrinin kifayət qədər zəruri bir problemlə əlaqədar olduğunu və vaxtında təqdim edildiyini qeyd etmək istəyirəm. Hesab edirəm ki, bu qanun layihələrinin təqdim edilməsi Azərbaycanda uşaq hüquqlarının qorunmasının təkmilləşdirilməsi ehtiyacından irəli gəlibdir. Bunu iki aspektdə əsaslandırmaq olar. Birinci, ayrı-ayrı beynəlxalq təşkilatlarda, müxtəlif ölkələrdə, o cümlədən Azərbaycanda da uşaq hüquqlarının qorunması ilə əlaqədar məsələnin vəziyyəti ilə bağlı hesabatlar hazırlanır. Bir sıra hallarda Azərbaycanla əlaqədar tənqidlərə biz burada da rast gəlmiş oluruq. Ola bilsin ki, bu tənqidlərdə azacıq

əsaslar var. Hesab edirəm ki, təqdim olunan bu layihələr həmin problemlərin həll olunmasına öz müsbət töhfəsini verə biləcəkdir.

İkinci, Azərbaycanda qeyri-dövlət uşaq müəssisələri formalaşır. Çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu gün həmin uşaq müəssisələrində uşaq hüquqlarının qorunması, uşaqlara xidmətlərin göstərilməsi ilə əlaqədar nəzarətin həyata keçirilməsi səlahiyyətləri aydın şəkildə hər hansı bir dövlət müəssisəsinə həvalə edilməmişdir. Bu da ciddi problemlər yaradır. Bu məsələ də təqdim olunan qanun layihələrində öz əksini tapıbdır. Həm dövlət müəssisələrində, həm də qeyri-dövlət uşaq müəssisələrində uşaqlara göstərilən xidmətlərlə əlaqədar müvafiq dövlət orqanları eyni kriteriyalar əsasında monitorinq aparmaq, nəzarət həyata keçirmək, nöqsanlar olacaqsa, onların aradan qaldırılması üçün lazımi tədbirlər görmək səlahiyyətlərinə malikdirlər. Bu mənada hesab edirəm ki, bu, Azərbaycanda uşaq hüquqlarının qorunmasına öz töhfəsini verəcəkdir.

Mənim burada ritorik olmayan suallarım olacaqdır. Bu günə qədər Azərbaycanda uşaq hüquqlarının qorunması ilə əlaqədar ikipilləli komissiyalar var idi. Bunun biri yerli komissiyalardır. İndi burada yerli komissiyaların fəaliyyətinin təkmilləşdirilməsi ilə əlaqədar yaxşı təkliflər var. Qəyyumluq və himayəyə götürmək məsələlərinin daha səmərəli təşkil edilməsi suallar yaradır. Güman edirəm ki, bunlar qanun layihəsində artıq öz həllini tapır və praktikada da öz həllini tapacaqdır.

İkinci pillə. Azərbaycan Respublikasının Nazirlər Kabinetində uşaq hüquqlarının müdafiəsi üzrə komissiya mövcud idi. Yerli komissiyalar tamamilə aydındır. Çünki

uşaq hüquqlarının qorunması müxtəlif dövlət orqanları tərəfindən həyata keçirilir. Ona görə də bu orqanlar arasında əlaqələndirmənin həyata keçirilməsi məcburi xarakter daşıyırdı. Həm hüquq mühafizə orqanları, həm də digər dövlət orqanları uşaq hüquqlarının qorunması ilə məşğul olurdular. Belə olan halda koordinasiyaya çox ciddi bir ehtiyac var idi və bu ehtiyacdan da həmin komissiyalar yaranıb fəaliyyət göstərirdilər. Daha yüksək pillədə isə ümumi konseptual nəzarəti və əlaqələndirməni həyata keçirmək üçün Nazirlər Kabinetində belə bir komissiya yaranmışdı. İndi üçpilləli komissiya təklif olunur. Prinsip etibarı ilə bununla razılaşmaq olar. Amma hesab edirəm ki, hər bir komissiya pilləsinin arasında səlahiyyət bölgüləri daha aydın şəkildə göstərilməlidir.

Bu qanun layihəsinin 6-cı və 7-ci maddələrində göstərilən komissiyaların səlahiyyətlərində təkrarlar var. Belə ki, həmin maddələr tamamilə bir-birini təkrar edir. Belə olan halda istər-istəməz sual yaranır ki, əgər ayrı-ayrı pillələrdə olan komissiyaların səlahiyyətləri bir-birini təkrar edirsə, komissiyaların bu cür pillələrə bölünməsinə hansı ehtiyac yaranır? Fikrimcə, bu problemi həll etmək üçün istər Hicran xanımın, istərsə də Əli Hüseynlinin rəhbərlik etdikləri komitələr bu məsələni daha dəqiq və ətraflı şəkildə aydınlaşdırmalıdırlar ki, birincisi, əgər səlahiyyətlər tamamilə bir-birini təkrar edirsə, belə olan halda üç pillənin yaradılmasına ehtiyac qalırmı? Rayon səviyyəsində, yəni regional səviyyədə bu, mütləq şəkildədir. Çünki regionlarımızda, rayonlarda uşaq hüquqlarının qorunması ilə əlaqədar müxtəlif dövlət orqanları fəaliyyət göstərirlər, onların səlahiyyətləri var və burada əlaqələndirmə mütləq şəkildədir. Eyni ilə də mərkəzi icra

hakimiyyəti orqanları səviyyəsində müxtəlif orqanlar uşaq hüquqlarının qorunması ilə əlaqədar fəaliyyət göstərirlər və burada da əlaqələndirmə mütləq olmalıdır.

Orta pillədə isə uşaq hüquqlarının qorunması ilə bağlı səlahiyyəti yerinə yetirən bir orqanın digər uşaq hüquqlarının qorunması ilə əlaqədar səlahiyyəti yerinə yetirən orqanlar arasında əlaqələndirmə necə olacaq? Ona görə də bu məsələnin dəqiqləşdirilməsinə ehtiyac var. Yerlərdəki koordinasiya aydındır. Nazirlər Kabineti və müxtəlif dövlət orqanları tərəfindən koordinasiya aydındır. Amma dediyim kimi, iki eyni orqanın səlahiyyətləri necə əlaqələndiriləcək? Burada koordinasiya nə cür olacaqdır? Burada təkrarlar var. Məsələn, Bakı şəhəri üzrə bizim müvafiq icra orqanında yaradılan komissiya Bakı şəhərində uşaqların hüquqlarının qorunması ilə bağlı əlaqələndirməni həyata keçirəcək. Axı, Bakı şəhərində rayonlar da var. Bu rayonların hər birində, Bakıya aid olmayan digər rayonlarda olduğu kimi komissiyalar mövcuddur və onlar da fəaliyyət göstərir. Bakıdakı icra orqanında yaradılan komissiya koordinasiya edəcək. Bəs rayonlarda kim koordinasiya edəcək? Ona görə də burada bir neçə dəqiqləşdirilməli məqamlar var. Mən xahiş edərdim ki, növbəti oxunuşa qədər bunlar aydınlaşdırılsın və təkrarlar olmasın. Çünki bu təkrarlar komissiyaların fəaliyyətini səmərəli şəkildə həyata keçirməsinə ciddi əngəllər törədə bilər.

Bütövlükdə isə, hesab edirəm ki, qanun layihəsi Azərbaycanda uşaq hüquqlarının qorunmasına öz töhfəsini verəcəkdir. Azərbaycan cəmiyyəti uşaqlara kifayət qədər böyük diqqət ayırır. Dövlətimiz də təbii olaraq cəmiyyətin bu yanaşmasına uyğun şəkildə öz siyasətində bunu həyata keçirir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət

Komitəsi Ümummilli Liderimiz, eyni zamanda, dövlət tərəfindən Azərbaycanda uşaq hüquqlarının qorunmasına kifayət qədər diqqətin ayrılması məqsədi ilə yaradılıbdır. Bu mənada, hesab edirəm ki, bu qanun layihəsi Azərbaycanda uşaq hüquqlarının qorunması strategiyasının həyata keçirilməsinə də öz töhfəsini verəcəkdir.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Bununla bağlı komitə sədrlərinin sözü var?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hicran xanım, Zahid müəllim yazılmışdı, ondan sonra mən Sizə söz verəcəyəm. Zahid Oruc. Buyurun.

**Zahid Oruc**. Təşəkkür edirəm, hörmətli sədr. Əli müəllim çox maraqlı məsələlərə toxundu. Hamı bu layihənin tərəfdarıdır, qəbulunu zəruri hesab edir. Bununla bərabər, icra hakimiyyəti sistemində iyerarxiya üzrə aşağıdan yuxarıya doğru məlum iki psixoloq və məsul katib, qəyyumluq və himayəçilik üzrə də şəxslər məsələsi, məncə, bir qədər əvvəlki dövr idarəçiliyinin bir tələbi olub. Zaman etibarı ilə, – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi bunu arzulayır, – prosesin vahid mərkəzdən idarə olunması üçün və deyilən paralelliyi aradan qaldırmaq naminə, mənə elə gəlir ki, hətta Nazirlər Kabineti yanında belə komissiyaların fəaliyyətini ləğv edərək bütün bu məsələləri bir komitədə – Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində birləşdirmək lazımdır. Yeri gəlmişkən, bənzər təcrübə digər strukturlarda tətbiq olunub. Mümkündür. Nazirlər Kabineti yanında korrupsiyaya qarşı mübarizə üzrə, yaxud da narkotiklərlə mübarizə üzrə və sair məsələlərə bağlı müxtəlif formatlı komissiyalar var. Ona görə də müzakirələrdə komitənin

təmsilçiləri bu arzularını ifadə etdilər ki, məsuliyyət bizdən istənilir, qaynar xəttə gələn bütün zənglər, müraciətlər bizdən tələb olunur. Amma heç rayonlarda bəzən bilmirlər ki, icra hakimiyyətlərində iki şəxs onların fəaliyyətindən məsuldur, məşğuldurlar və sair. Birinci bu məsələni qeyd etmək istədim.

İkinci. Hörmətli Hikmət müəllim çox maraqlı məsələlərə toxundu. Mənim təmsil etdiyim mərkəz komitə ilə birlikdə uşaqlarımızın ailə mühitində yeri, rolu, psixologiyası, uşaq rol modelləri, bunların idealları və sair... Biz öz qəhrəmanlarımızı uşaqlarımızın beyninə, düşüncəsinə, təfəkkürünə nə dərəcə daxil edə bilirik? Hikmət müəllim cizgi filmlərini, digər vasitələri qeyd etdi. Amma mən xatırlatmaq istəyirəm ki, bizim parlamentin uşaqların zərərli informasiyadan qorunmasına dair qəbul etdiyi çox mühüm bir qanunu var. Orada ailə institutunun gözdən salınmasından tutmuş... Qlobal məkanda "infodemiya" termini var. Pandemiyanın bir növü kimidir. Müxtəlif dövlətlər süzgəc sistemindən, mobil rabitədən tutmuş kompüterlərə qədər bunu tətbiq edirlər. Amma bu proses də asan deyil. Çünki həqiqətən də, uşaqların psixologiyası naminə onların yanında olmaq, dostuna çevrilmək, gələcəyini formalaşdırmaq lazımdır. Hamımızın dediyi belə bir termin var: "beyin köçü". Amma bu beyinlər ölkədə ola-ola da köçə bilərlər. Yəni hamı bir vaxtlar çanaq antenalarına bağlanmışdı. İndi isə bu mobil rabitə sisteminə. Ona görə də biz razıyıq ki, hər bir dövlətin öz milli gələcəyini formalaşdırarkən siyasəti uşaqlar üzərində qurmağa dair kompleks planları var. Düşünürəm ki, layihə, əslində, bu yöndə bu imkanları artırır. Ona görə də çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli müəllimin qaldırdığı məsələ ilə bağlı, hörmətli Hicran xanım, buyurun.

**Hicran Hüseynova**. Çox sağ olun, xanım sədr. Çox hörmətli Əli müəllim çox vacib məsələləri qaldırdı. Mən burada qanunlarla bağlı kiçik bir araşdırma aparmaq istəyirəm. Vaxtı ilə bu komissiyalar yarananda bunlar icra hakimiyyətində cəmi iki nəfərdən ibarət idilər. Mən çıxışımda da bunu qeyd etdim. Onların hansı isə kömək etməsi, hansı isə addımlar atması üçün çox böyük çətinliklər qoyulub. Çünki bu insanlar icra hakimiyyətində daha çox həmin qurumun məsələləri ilə məşğul olurdular. Bunlara həvalə olunan səlahiyyətlər sırasında yalnız uşaq hüquqları baxımından bir çox məsələlər üzə çıxır. O cümlədən də hüquqi məsələlər var. Ona görə ki, bir çox ailələr müraciət edir. Boşanma dövründə hakimlər mütləq komissiyaların rəylərini tələb edirlər. Mən bunları çox sadalamaq istəmirəm. Ona görə məsələ belə qoyulmuşdu ki, komissiyanın tərkibi genişləndirilsin, daha çox insanlar olsun. 8-9 nəfər nəzərdə tutulub.

Biz vaxtı ilə məişət zorakılığı ilə bağlı monitorinq qruplarının tərkibini genişləndirdik. Sonra da qanunla qəbul olundu ki, bütün aidiyyəti qurumlar orada mütləq işləsin. Burada da fəaliyyət göstərən bütün aidiyyəti qurumlar hamısı rayon yerində fəaliyyət göstərəcəklər.

Nəzarət funksiyası. Nə üçün bu komitə yaranır? Tamamilə şəffaflıq üçün. Mən nəyə görə bunun vacibliyini vurğulayıram? Heç bir ayrı dövlət qurumu deyil, ümumiyyətlə, onlara nəzarət edən bir komitə olacaq. Bütün məsələlər hansı isə bir monitorinq formasında həmin komitədə formalaşacaq. Sonradan hər hansı bir dövlət qurumunda problemlər, təkliflər olacağı təqdirdə,

həmin komitəyə həvalə olunacaq ki, bu məsələlər həllini tapsın. Mən bilmirəm, nə dərəcədə bu fikri çatdıra bildim. Lazım olsa, biz bunu ikinci oxunuşda daha ətraflı müzakirə edərik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bəli, çünki qaldırılan məsələ konseptual xarakter daşıyır. Mən düşünürəm ki, bu məsələ komitə iclaslarında komitə üzvləri ilə birgə ikinci oxunuşla bağlı mütləq müzakirə olunsun.

İndi isə hörmətli Əli Hüseynli. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Açığı, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi olaraq biz layihənin bu qədər geniş müzakirə olunacağını gözləmirdik. Ona görə ki, həm müqayisəli arayış, həm də izahedici əsaslandırma çox təfsilatı ilə verilib. Burada bizim komitənin də məruzəçisi qeyd etdi. Dəyişən cəmi bir neçə məsələdir. Misal üçün, katibliyin yaradılmasıdır. Hesab edirəm ki, komissiyaların işi bu günə qədər, ümumən, uğurla gedib. Bütövlükdə isə, layihə, onun mahiyyəti, əslində, uyğunlaşdırma xarakterlidir. Hətta 6-cı və 7-ci maddələrdə də ancaq "yetkinlik yaşına çatmayan" ifadəsi "uşaq" sözü ilə dəyişib. Amma komitə olaraq biz işçi qaydasında bütün təklifləri yenidən öyrənməyə hazırıq. Çox sağ olun.

**Sədrlik edən.** Oldu, çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihələrini bir-bir səsə qoyacağam. 11-ci məsələdəki qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 108 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə mən 12-ci məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 13-cü məsələ Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumatı, Əli müəllim, özünüz verəcəksiniz, elə deyilmi? Buyurun. Əli Hüseynli.

**Əli Hüseynli**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar. Təqdim olunmuş qanun layihəsini zəruri edən əsas hal ondan ibarətdir ki, təxminən 10-dan yuxarı qanunda həmin qanunların pozulması ilə bağlı məsuliyyətin yaradılması

normaları nəzərdə tutulur. Onları sadalamaq istəmirəm. Çünki arayışda hamısı təfsilatı ilə sizlərə təqdim olunub. "Qida təhlükəsizliyi haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" və bir sıra qanunlarda. Məhz həmin müddəalar Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişikliklər və əlavələr edilməsini zəruri edir. Layihə bu məqsədlə hazırlanmışdır. Faktiki olaraq qadağanedici normalar dispozisiya formasında Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində öz əksini tapır. Təbii ki, cinayət əməlinə və inzibati xətaya görə müvafiq sanksiyalar da nəzərdə tutulur. Hesab edirik ki, sanksiyalar bizim indiyə qədər bu sahədə müəyyənləşdirdiyimiz, bütövlükdə, normalara uyğundur. Eyni zamanda, həm cinayət əməlinə, həm də inzibati xətaya adekvatdır.

Hesab edirəm ki, layihənin bu formada təqdim olunması təqdirəlayiqdir. Çünki "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu tələb edir ki, layihələr paket şəklində təqdim olunsun. Hörmətli sədr, təqdirəlayiq hal ondan ibarətdir ki, təkcə qüvvədə olan qanunlar deyil, həm də artıq müzakirəsinə başladığımız birinci oxunuşda olan qanunlarla da bağlı məsuliyyət nəzərdə tutulan normalar təqdim olunmuşdur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən var. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. Mən Cinayət Məcəlləsinə edilən dəyişikliklə bağlı fikrimi bildirmək istəyirəm. Biz Cinayət Məcəlləsinin İqtisadi fəaliyyət sahəsində olan cinayətlər fəslinə 200-3-cü maddəni əlavə edirik. Yəni insan həyatı və sağlamlığı

üçün təhlükəli qida məhsullarının bilə-bilə istehsalı, satışı və ya satış məqsədi ilə saxlanılması. Bu əməllər xeyli miqdarda törədildikdə cinayət məsuliyyətinə səbəb olur. Əvvəla, Həyat və sağlamlıq əleyhinə olan cinayətlər bölməsinə də bu normanı daxil etmək olardı. Amma burada əsas məqsəd odur ki, bu, iqtisadi fəaliyyət sahəsində olan cinayətdir.

Mən, sadəcə olaraq, bəzi məsələlərə konseptual baxımdan diqqətinizi cəlb etmək istəyirəm. Əgər şəxs onun istehsal etdiyi qida məhsulunun insan həyatı üçün təhlükəli olduğunu bilirsə və bunu xeyli miqdarda istehsal edibsə, o zaman cinayət məsuliyyəti yaranır. Bu mənada başadüşülən deyil ki, xeyli miqdarda istehsal nəyi nəzərdə tutur. Məhsulun həcmini, yoxsa onun qiymətini? Tutaq ki, düzgün qaydada konservləşdirilməmiş bir banka göbələk bir ailənin məhvinə gətirib çıxara bilər. Onun dəyəri də, həcmi də azdır. O baxımdan əgər söhbət insanın həyat və sağlamlığından gedirsə, onun yalnız xeyli miqdarda istehsalının cinayət tərkibli olması, hesab edirəm ki, bir az anlaşılan, başadüşülən deyil.

İkinci bir məsələ. Yenə həmin 200-3.4-cü maddədə qeyd olunur ki, nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan insan ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda. Əgər şəxs bilə-bilə insan həyatı üçün təhlükəli olan məhsulu istehsal edirsə, yaxud bu satılırsa, burada hansı ehtiyatsızlıqdan söhbət gedə bilər? Bizim Cinayət Məcəlləsinin 25-ci maddəsində qeyd olunur ki, birbaşa və dolayı yolla, qəsdlə törədilmiş əməl, hərəkət və ya hərəkətsizlik qəsdən törədilmiş cinayət sayılır. Burada dolayı qəsdlə törədilmiş əməl özünü nədə ehtiva edir? Şəxs öz əməlinin ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai

təhlükəli nəticələrini qabaqcadan görmüş, lakin bunları arzu etməmiş və belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu halda cinayət dolayı qəsdlə törədilmiş hesab olunur. Ona görə hesab edirəm ki, burada o nəticələrin ehtiyatsızlıqla birbaşa bağlanması, əlaqələndirilməsi doğru deyil. Çünki Cinayət Məcəlləsinin 26.3-cü maddəsində qeyd olunur ki, şəxs öz əməlinin, hərəkət və ya hərəkətsizliyinin ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görməmişdirsə, burada ehtiyatsızlıqdan törədilən əməldən söhbət gedir. Amma biz burada qeyd edirik ki, şəxs bilə-bilə insan həyatı üçün təhlükəli məhsul istehsal edir. Mən qeyd etmək istəyirəm ki, əgər doğrudan da, belə məhsulun istehsalı və satışı insanların ölümünə gətirib çıxarıbsa, o halda həmin şəxs cinayətlərin cəmi, məcmusu qaydasında, bizim Cinayət Məcəlləsinin 66-cı maddəsinə uyğun olaraq, məsuliyyətə cəlb olunmalıdır. Həm qəsdən adam öldürməyə görə, həm də dediyim kimi, təhlükəli qida məhsullarının istehsalı və ya satışına görə.

Hörmətli sədr, mən həm də İnzibati hüquqpozmalar haqqında Məcəlləyə edilən dəyişikliklə bağlı diqqətinizi bir məsələyə cəlb etmək istəyirəm. Bizim "Dərman vasitələri haqqında" Qanunda qeyd olunur ki, bioloji aktiv qida məhsulları dərman vasitəsi hesab olunmadığına görə reseptdə yazıla bilməz və onun yazılması qadağandır. Eyni zamanda, bizim "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Qanunumuz var. Həmin süni qida məhsulunun üzərində 7-3.4-cü maddədə süni qida məhsullarına qoyulan tələblər qeyd olunur: "Yalnız həkim məsləhəti ilə istifadə edilə bilməsi haqqında təminatı əks

etdirməlidir”. Hörmətli Əhliman müəllim də burada əyləşib. Mən aydınlaşdırmaq istəyirəm ki, bu süni qida məhsulu ilə bioloji aktiv qida məhsulu eynidirmi?

Həmçinin 14-1.1-ci maddədə qeyd olunur ki, bioloji aktiv qida məhsulları orqanizmin gücləndirilməsi, qidanın zənginləşdirilməsi məqsədi ilə həkim tərəfindən tövsiyə oluna bilər. Mənim bacım pediatrdır, Tibb Universitetinin dosentidir. Mən onunla da söhbət etdim. Məsələn, uşağın çəkisi azdır. O, uşağa süni qida əlavəsi yazır. Uşağın çəkisinə görə bunu tövsiyə etməlidir. Ümumiyyətlə, o süni qida məhsullarının da müxtəlif növləri, formaları var.

Biz indi burada cəzaları da artırırıq. Əvvəl reseptə yazılırdısa, 30 manat cərimə olunurdu. İndi 100 manatdan 150 manata qədər qaldırırıq. Həkimlər bunu harada yazmalıdırlar? İstəyərdim, Əhliman müəllim bu məsələyə də diqqət yetirsin, istəsə, münasibət bildirsin ki, əgər həm süni qida məhsulunun, həm də bioloji aktiv qida məhsulunun həkim tövsiyəsi ilə qəbulu məsləhət bilinirsə və həkimlərin də bunu reseptə yazması qadağandırsa... Mən bacımdan soruşdum. O dedi ki, bir çox hallarda deyirəm, adı yadda qalmır, kimsə telefonunda diktofona yazır. Yaxud da reseptə deyil, başqa bir kağızın üzərində yazıb verir. Bu nəyi dəyişir? Ümumiyyətlə, bunun reseptə yazılması ilə bağlı qadağa, sözün həqiqi mənasında, bir az başadüşülən deyil. Mən buna görə də cərimələrin bu qədər artırılmasının əleyhinəyəm. Bunu da diqqətinizə çatdırmaq istədim. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət müəllim bir neçə məsələ qaldırdı. Əli müəllim, həm sizin komitənizə, Əhliman müəllim, həm də sizin komitənizə aiddir. Kim çıxış etmək istəyirsə, buyursun. Əli müəllim, buyurun.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli sədr. Əslində, bir məsələ qaldığına görə münasibət bildirirəm. Bəlkə də başqa halda işçi qaydasında həll edə bilərdik. Qüdrət müəllimin qaldırdığı 203-cü maddə ilə bağlı – Təhlükəli qida məhsullarının istehsalı, satışı və ya satış məqsədi ilə saxlanması. Burada dispozisiyaya görə məsuliyyət nəzərdə tutulur. Gördüyünüz kimi, 2 ilədək müddətə azadlıqdan məhrum etmə və sair. Yəni məsuliyyət bu halda, sırf qida təhlükəsizliyi kontekstində göstərilir. Amma Qüdrət müəllim, bizim Cinayət Məcəlləsinin digər maddələrində də görə bilərsiniz ki, dispozisiyada göstərilmiş bəzi əməllər ehtiyatsızlıqdan insan ölümünə səbəb olursa, – baxmayaraq ki, birinci dəfə qəsdən törədilib, yəni qəsdən təhlükəli qida istehsal edib, qəsdən saxlayıb, – bu, daha ağır bir məsuliyyətdir. Əgər ölümlə nəticələnməsə və digər ağır səbəblərə gətirib çıxarmasa, bu, ümumiyyətlə, məsuliyyət yaratmır. Bu baxımdan, hesab edirəm ki, qanunvericilik təşəbbüsü subyekti çox dəqiq göstərib. Yəni göstərib ki, o saxlamanın özü qəsdəndir, amma onun ehtiyatsızlığından insan ölümünə səbəb olursa, bu, daha ağır bir məsuliyyətə cəlb oluna bilər. Digər məsələ ilə bağlı isə əgər Əhliman müəllim istəsə, münasibət bildirər.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli Ziyafət Əsgərov söz istəyib. Xahiş edirəm, Ziyafət müəllim, buyurun.

**Ziyafət Əsgərov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, mən, əslində, Əli müəllimin dediyi fikrə qüvvət vermək istəyirəm. Qüdrət müəllim, doğrudan, çox maraqlı məsələ qaldırdı. Amma Qüdrət müəllim, biz hüquqşünas kimi bilirik ki, qəsdən, bilə-bilə edilən cinayətlərdə məsələ bir az başqa cürdür. Burada

şəxs qabaqcadan cinayətin olduğunu görür, arzulayır və bunun hamısını bilir. Bir də var, yanakı qəsd, düzünə qəsd. Amma ehtiyatsızlıqdan olan cinayətlərdə bu arzuniyyət yoxdur, sadəcə olaraq, vəziyyət elə gətirib ki... Məsələn, nəqliyyat cinayətləri. Sürücü ehtiyatsızlıqdan vurub adam öldürür. Belə şeylər olur, elədirmi? Özünüz də müstəntiq işləmisiniz. İstər nəqliyyat, istərsə də qida təhlükəsizliyi ilə bağlı hadisələr olsun. Bizim Cinayət Məcəlləsində hər hansı bir cinayətin tərkibinin əlamətləri veriləndə və əməl tövsif olunanda bunlar mütləq nəzərə alınır. Ona görə də burada ehtiyatsızlıqdan insan ölümünə səbəb olan halların olması mümkündür. Amma bu, bilə-bilə edilməyib. Bilə-bilə edilən hal artıq birinci hissədədir.

Qüdrət müəllim, mən Sizinlə o mənada razı ola bilərəm ki, biz bunu ayrıca bir maddə kimi verək. Hesab edirəm ki, o zaman hər şey daha aydın olar. Amma prinsipcə mən hesab edirəm ki, məsələnin qoyuluşu düzgündür, burada heç bir problem yoxdur. Sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət müəllim, Siz yazılmısınız, bircə dəqiqə, mən Əhliman müəllimə söz verim. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov**. Mən Qüdrət müəllimin qaldırdığı məsələ ilə bağlı münasibətimi bildirmək istərdim. Ümumiyyətlə, xəstələr, yaxud da xəstə valideynləri həkimə müraciət edəndə həkim bütün tövsiyələrini resept şəklində onlara təqdim etmir. Yəni xəstəliklə bağlı, o cümlədən xəstənin qidalanması, davranışı və sairlə bağlı bir çox tövsiyələri olur. Ona görə dərman vasitələri olmayan preparatların reseptə yazılması qadağandır. Nəyə görə biz bunu qadağan etdik? Çünki burada müəyyən sui-istifadə halları olurdu. Həkimlər bəzən lazım olmayan

aktiv qida əlavələrini də reseptə yazırdılar və bu da xoşagəlməz hallara gətirib çıxarırdı. Əgər həkim, doğrudan da, uşağa süni qida maddəsinin lazım olduğunu hesab edirsə, tövsiyə edəcək və onun əldə olunması üçün də reseptə ehtiyac yoxdur. Eyni ilə qida əlavələri də. Həkim qida əlavələrini reseptə yaza bilməz. Ancaq tövsiyə edə bilər ki, təyin etdiyi dərman vasitələri ilə bərabər, qida əlavələrindən də istifadə edilə bilər. Mənə belə gəlir ki, onların reseptə yazılması düzgün deyil. Ona görə də biz düzgün olaraq "Dərman vasitələri haqqında" Qanunda bunu qadağan etmişik. Bu qədər.

**Sədrlik edən.** Vitaminlər necə? Uşaqlara D vitamini yazılır. O necə?

**Əhliman Əmiraslanov.** Sahibə xanım, elə vitaminlər var ki, onlara resept veririk. Ancaq müəyyən vitaminlər qrupu var ki, onları reseptsiz də əldə etmək olar.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. Ziyafət müəllimin söylədikləri ilə bağlı demək istəyirəm ki, mən burada cinayətin ehtiyatsızlıqdan törədilməsi nədir, qeyd etdim. Mən həm Ziyafət müəllimdə, həm də deputat həmkarlarımda aydın bir təsəvvür yaransın deyə, diqqət yetirmək istəyirəm. Yəni ehtiyatsızlıqdan törədilən cinayət, xüsusilə də şəxsin öz davranışına çox etinasız yanaşması. Mən bir misal çəkim. Avtomobil sürücüsü görür ki, yer yaşdır və hava da soyuyur, avtomobildə havanın temperaturuna da baxmır. Fikirləşmir ki, yol buzlaşa bilər və sürət həddini aşağı endirmir. Burada söhbət nədən gedir? Yəni şəxs öz əməlinin ictimai təhlükəli nəticələr verə biləcəyini lazımi diqqət və

ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu halda, görmür. Amma bu məsələdə görür.

Biz burada yazırıq ki, bilə-bilə insan həyatı və sağlamlığı üçün təhlükəli olan məhsulu istehsal etmək... Bu şəxs bilir ki, onun istehsal etdiyi məhsul insanın həyatı üçün təhlükəlidir. Burada, sadəcə olaraq, dolayı qəsd var. Bu nəticəni arzulamır. Dolayı qəsddə deyilir ki, şəxs bunun nəticəsini arzu etmir, amma belə nəticələrin baş verməsinə şüurlu surətdə yol verir. Bilir ki, bunun satdığı məhsulu kim isə yesə, dünyasını dəyişə bilər, dəyişəcək. Yəni onun istehsal etdiyi bu məhsul zəhərlidir. Buna baxmayaraq, bunu edir. Onda gəlin, "bilə-bilə insan həyatı və sağlamlığı üçün" sözlərini bu normadan çıxaraq. Amma bir daha söyləyirəm, əgər bir insan onun istehsal etdiyi məhsulun başqalarının dövlət tərəfindən, qanunla qorunan həyatını, mənafelərini təhlükə altına aldığını bilirsə, o halda mən düşünürəm ki, o şəxs cinayətlərin məcmusu qarşısında məsuliyyət daşımalıdır. Onun istehsal etdiyi məhsulu kim isə yeyib ölürsə, bu halda o ölüm ehtiyatsızlıqdan baş vermir. Bu halda yanakı qəsd var. Ona görə də o, cinayətlərin məcmusu qarşısında məsuliyyətə cəlb olunmalıdır.

Sahibə xanım, arayış üçün imkan yaratdığınıza görə çox təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Qüdrət müəllim.

**Ziyafət Əsgərov.** Çox üzr istəyirəm, hörmətli xanım sədr. Mən burada elmi mübahisə açmaq istəmirəm. Qüdrət müəllim, yenə deyirəm, burada Sizin gətirdiyiniz məsələ ya qəsd, ya da yanakı qəsddir. Fərqi yoxdur, ikisi də qəsddir. Birində üç bəndin üçünə də əməl olunur, yəni əvvəlcədən görür, arzulayır və bunun nəticəsini bilir. O

birində isə istəmir. Bunlar bilə-bilə edilən qəsddir. Biz bunları başa düşdük. Söhbət ehtiyatsızlıqdan gedir. Yəni insan bu qida məhsulunun zəhərli olduğunu bilməyə də bilər. O zaman da belə ölüm nəticəsi əmələ gələ bilər ki, bu da ehtiyatsızlıqdır. Bu, hamıda olur. Bunu birinci hissədə yazmışıq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ziyafət müəllim, bir dəqiqə

**Ziyafət Əsgərov**. Yaxşı, ikinci oxunuşda bunu müzakirə edərik.

**Sədrlik edən.** Hörmətli Əli müəllim, mən xahiş edirəm, Ziyafət müəllimi də, Qüdrət müəllimi də komitənizin iclasına dəvət edin. Qüdrət müəllim məsələlər qaldırır, Ziyafət müəllim də öz fikrini bildirir. Mən düşünürəm ki, bu məsələlərə Siz iclasınızda baxa bilərsiniz.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur, mən qanun layihəsini birinci oxunuşda səsə qoyacağam. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə iki məsələ qalır. Hər biri ikinci oxunuşda olan qanun layihəsidir.

İndi isə gündəliyin 14-cü məsələsinə keçirik. Bu məsələ "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, Sizdən xahiş edəcəyəm. Buyurun, məlumat verin. Komitənin sədri Azər Əmiraslanov. Buyurun.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında qanun layihəsini plenar iclasda ikinci oxunuş üçün müzakirəyə tövsiyə etmişik. Birinci oxunuşda müzakirə zamanı hörmətli millət vəkillərinin bəziləri tərəfindən narahatlıq ifadə olundu ki, qanun layihəsi bazar iqtisadiyyatı prinsiplərini pozur və dövlətin bazara müdaxiləsinə şərait yaradır. Bu mülahizələri bölüşməsək də, həmkarlarımızın fərqli baxış bucağını mövqe kimi qəbul edirik və hörmətlə yanaşırıq. Bununla belə bəzi vacib məqamları xüsusi olaraq qeyd etmək istərdim. Nəzərə almalıyıq ki, Azərbaycanda bazar iqtisadiyyatına, azad sahibkarlıq fəaliyyətinə, xüsusi mülkiyyətə hər şeydən əvvəl əsas qanunumuz – Konstitusiyamız təminat verir. Bu təminat əsas qanunumuzun İqtisadi inkişaf və dövlət adlanan 15-ci maddəsində əksini tapır. Ümumiyyətlə, sahibkarlıq fəaliyyətinə müdaxilə etməmək, bazar iqtisadi sistemini inkişaf etdirmək iqtisadi strategiyamızın əsas hədəflərindəndir və dövlət siyasətidir. Mən Prezident İlham Əliyevin bununla bağlı mühüm tezisini xatırlatmaq istərdim.

Sahibkarlığın inkişaf etdirilməsi bizim dövlət siyasətimizdir. Sahibkarlığa kim maneə yaradarsa, bu fəaliyyət dövlət siyasətinə zidd əməl kimi qiymətləndiriləcəkdir.

Yenə də cənab Prezidentin qeyd etdiyi kimi, bizim iqtisadi siyasətimizin özünəməxsusluğu ondadır ki, biz iqtisadi və sosial məsələlərə bir paketdə baxırıq. Bu layihədə də sosial və iqtisadi aspektlər uzlaşdırılır. Yəni həm istehsalçıların, həm də istehlakçıların maraqları nəzərə alınır. Bu baxımdan, minimum qiymət mexanizminin bazar münasibətlərinə xələl gətirməsi ilə bağlı narahatlığa qətiyyən əsas yoxdur. Bu layihə alkoqollu içkilərə minimum qiymət mexanizminin tətbiqini nəzərdə tutsa da, mahiyyətcə alkoqollu içkilərin keyfiyyəti və təhlükəsizliyi, dövlət qarşısında vergi öhdəliklərinin yerinə yetirilməsi, sosial fondlara icbari ayırmaların köçürülməsi, işçilərə əmək müqavilələrinin rəsmiləşdirilməsi, keyfiyyətli məhsul istehsalına imkan verən istehsal xərcləri üçün minimum tələblər müəyyən edir.

Alkoqollu içkilər, bazarı etiraf etməliyik ki, istehlak bazarının ən mürəkkəb, ən çətin tənzimlənən seqmentlərindən biridir. Belə ki, bazarın bu seqmentində indiyə kimi dövlət tərəfindən çoxşaxəli tədbirlər görülmüşdür. Lakin bu bazarın xüsusiyyətləri daha təsirli mexanizmin formalaşdırılmasını tələb edir. Çünki görülmüş tədbirlərə baxmayaraq, hələ də uçot, keyfiyyət, vergi nəzarəti sahəsində problemlər qalmaqdadır. Alkoqollu içkilər üçün minimum qiymət tələbi öz-özlüyündə bu sahədə problemləri avtomatik olaraq həll etməyəcəkdir. Bu mexanizmin təsirli və nəticəli olması, eyni zamanda, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən haqsız rəqabətə qarşı sərt tədbirlərin görülməsini, Qida Təhlükəsizliyi Agentliyi tərəfindən istehlakçıların keyfiyyətsiz və saxta məhsullardan qorunmasını, Dövlət Vergi Xidməti tərəfindən müvafiq bazarda vergi inzibatçılığının yaxşılaş-

dırılmasını tələb edir. Bir sözlə, minimum qiymət tələbi mexanizminin təsirli nəticə verməsi sistemli və kompleks yanaşma tələb edir.

İkinci oxunuşda müzakirə etdiyimiz qanun layihəsi yeni mexanizm olaraq bu sahədə əsaslı dönüşün yaradılmasını nəzərdə tutur. Bu baxımdan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi olaraq bu qanun layihəsinin deputat həmkarlarımız tərəfindən dəstəklənməsini xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, biz qanun layihəsini ikinci oxunuşda əsas kimi qəbul etməliyik. Mən bu qanun layihəsini əsas kimi səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Müzakirəyə yazılanlar yoxdur. Mən qanun layihəsini öncə maddələr üzrə səsə qoyacağam. 1 maddədən ibarətdir, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, dəyərli Sahibə xanım. Hörmətli həmkarlar, məsələ ikinci oxunuşdadır. Birinci oxunuş zamanı ətraflı məlumat vermişdim. Bu dəyişiklikdə iki istiqamət var. Birincisi, enerji daşıyıcılarından, yəni qiymətləri tənzimlənməyən enerji növlərindən də vəsait tutulur, Enerji effektivliyi fonduna köçürülür. Əsas məsələ bu idi. İkinci əsas məsələ. Həmin fondun saxlanma xərcləri artıq olmur, hazırkı qanunda nəzərdə tutulan vəsait digər

layihələrə cəlb olunur. Yəni bununla bağlı kifayət qədər ətraflı məlumat vermişdim. Birinci oxunuşda bir neçə sual çıxmışdı. Dəstəyə görə Vüqar Bayramova, Soltan Məmmədova, Elçin Mirzəbəyliyə və Məhərrəmzadə Əlibala müəllimə təşəkkür edirəm.

Vüqar müəllimin qaldırdığı məsələ ilə bağlı qısaca deyə bilərəm. Bərpa olunan enerji vəsaitinə xarici investorların, investisiyanın yönəldilməsi ilə bağlı 2027-ci ilə qədər bu sahəyə 3 milyarddan çox investisiya cəlb olunması nəzərdə tutulur. Bu da bu sahənin inkişafına xidmət edəcək.

Soltan Məmmədov Enerji effektivliyi fondu ilə yanaşı, bura digər xarici şirkətlərin və daxili şirkətlərin cəlb olunması məsələsini qaldırmışdı. Yəni enerji effektivliyi məsələsi belədir ki, bura əsas auditorları cəlb etmək olar. Onsuz da, bizim qanunumuzda var. Qanun icazə verir ki, hətta 11 milyon kilovat-saatdan çox istehlak varsa, burada audit məcburidir. Məcburi dedikdə xarici və yerli şirkətlər, auditorlar bu problemlərin həllinə öz köməklərini təklif edə bilərlər.

Elçin Mirzəbəyli məsələ qaldırmışdı. Onun məsələsi qanunvericilik təşəbbüsü subyektinə göndərilib, cavab gözləyirik. Yəqin ki, üçüncü oxunuşa qədər biz bu məsələni aydınlaşdıracağıq. Əlibala müəllimə də təşəkkür edirəm. Hələ ki olduğu kimi bu variantda səsə qoymağı təklif edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Sadiq müəllim. Hörmətli həmkarlar, ikinci oxunuşdur, əsas kimi münasibət bildirməliyik. Buyurun. Mən qanun layihəsini əsas kimi səsə qoyuram.

**Səsvermənin nəticələri** (saat 12.59 dəq.)

| | |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə yazılan yoxdur. Səsverməyə keçirəm. Bu qanun layihəsi iki maddədən ibarətdir. 1-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı haqqında sizə məlumat veriləcək. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***10 dekabr 2024-cü il***

**Asif Əsgərov.** Dekabrın 12-si Ulu Öndər Heydər Əliyevin anım günüdür. Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasından 21 il ötsə də, o, bu gün də, gələcəkdə də xalqının qəlbində yaşayacaq. Onun bir amalı var idi – qurduğu mütərəqqi dövləti inkişaf etdirmək, beynəlxalq aləmdə tanıtmaq. Bu amal gerçəkliyə çevrilib. Ümummilli Lider Heydər Əliyev yolu bu gün onun ən layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Biz bu gün yenə dövrümüzün möhtəşəm şəxsiyyəti Heydər Əliyevə müraciət edirik. Əslində, bu nadir insanın və siyasət korifeyinin heç zaman heç bir ifadəyə ehtiyacı olmasa da, biz dönə-dönə ona müraciət edirik. O səbəbdən ki, özümüzün ona hər zaman ehtiyacımız var. Xalqımı Ümummilli Lideri, zəmanəmizin dahisi Heydər Əliyev

Tarixdə elə insanlar var ki, onların əzəmətini heç sözlə ifadə etmək mümkün deyil. Heydər Əliyev də belə insanlardandır. Bu adın ucalığı bütün ifadələri kölgədə qoyur. Biz Heydər Əliyevi "Ulu Öndər", "müdrik insan", "dahi şəxsiyyət" adlandırırıq. Amma etiraf edək ki, bütün bunlar da onun milli təfəkkürümüzdə əbədilik qazanan statusunun yalnız müəyyən bir hissəsidir. Heydər Əliyev Azərbaycan milli şüurunun zirvəsidir.

Heydər Əliyevin zəngin ictimai-siyasi ömür yolunun zirvələrini xronikal qaydada bir-bir xatırlamaq olar. Amma bunların hamısını etməklə mən, onsuz da, bəlli

olan fikir və mülahizələri təkrarlamış olaram. Heydər Əliyevin ömür yolu, onun şəxsi keyfiyyətləri bütün məziyyətləri ilə yetərincə məlumdur. Çünki Heydər Əliyev hər zaman Azərbaycan xalqına bağlı olub və onun ömür yolu elə Azərbaycan tarixinin bir hissəsidir.

Heydər Əliyev şəxsiyyətini dəyərləndirmək cəhdində olmaq haradasa tarixə, zamana, gələcəyə qiymət vermək iddiası qədər çətindir. Lakin zaman böyük şəxsiyyətlərin əsl qiymətini verən ən ədalətli münsifdir. Aradan keçən dövr onların ömür salnaməsini daha aydın canlandırır, görmüş olduqları işləri tarix fonunda bütün əzəməti ilə əks etdirir. Ulu Öndəri bizdən ayıran illər ötdükcə onun şəxsiyyətinin böyüklüyü, dahiliyi daha dərindən dərk olunur. Bu mənada Ulu Öndərin cismani yoxluğundan ötən illər Heydər Əliyev şəxsiyyətinin Azərbaycan tarixindəki yeri və rolu, onun Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərinin mahiyyəti barədə düşünmək üçün vaxtın bizlərə yaratdığı gözəl imkandır. Hər bir azərbaycanlı üçün Heydər Əliyevin tarixdəki yerini müəyyən edəcək çox nişanələr var. Fikrimcə, onun yaratdığı ömür nümunəsi bunların hamısından öndə gəlir.

İndi artıq 33 ildir ki, müstəqil ölkədə yaşayırıq. Müstəqilliyimizi bərpa etməklə taleyimizə, milli ideologiyamıza və gələcəyimizə sahib çıxmaq imkanı qazanmışıq. Azərbaycanın müstəqil dövlət kimi bütün sahələrdə əldə etdiyi uğurlar bu fikri tam təsdiq edir. Dünyanın inkişaf etmiş ölkələri belə böhrandan əziyyət çəkdiyi bir zamanda ölkəmiz böyük nailiyyətlər qazanır. İqtisadiyyat inkişaf edir, cəmiyyətin bütün sahələri üzrə islahatlar davamlı həyata keçirilir, demokratik təsisatlar daha da möhkəmlənir. Bütün bunlar Heydər Əliyevin

işləyib hazırladığı dövlət quruculuğu konsepsiyası əsasında reallaşdırılır.

Azərbaycan bu gün çoxəsrlik tarixinin ən şanlı və qüdrətli dövrünü yaşayır. Heç şübhəsiz, xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin zirvə hadisəsi Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpasına nail olunmasıdır. Zəfər Gününün doğurduğu milli qürur hissindən insanın hansı duyğular keçirdiyini, nə qədər fərəhləndiyini sözlə ifadə etmək olmur. Bəli, qalib ölkənin vətəndaşı olmaq olduqca qürurvericidir.

Bu müstəsna siyasi hadisə və dövlətçilik tariximizdə bənzəri olmayan Zəfər salnaməsi Heydər Əliyev ideyalarının təntənəsi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük siyasətinin, ona hər bir sahədə dəstək verən ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli, ali dəyərlərə, milli maraqlara əsaslanan fəaliyyətinin real nəticəsidir. Ölkəmizi, xalqımızı daha uğurlu gələcək gözləyir. Azərbaycanın dahi oğlu Ümummilli Lider Heydər Əliyevin əməlləri, müqəddəs ideyaları və arzuları xalqımızın qəlbində daim yaşayacaqdır.

**Mehriban Vəliyeva.** 12 dekabr tarixi müstəqil dövlətçiliyimizin banisi, Ümummilli Liderimiz Heydər Əliyevin həyatla cismani vidalaşdığı gündür. Millətini hər şeydən uca tutmağı bacaran, həyatının hər anı xalqının taleyinə bağlı olan, nəbzi vətəninin nəbzi ilə bir vuran dahi şəxsiyyət haqqında heç vaxt keçmiş zamanda danışmırıq, yaratdıqları ilə yaşayırıq və yaşadırıq. Ulu Öndərin əbədiləşən ömür yolu, dövlətçilik təcrübəsi, düşünülmüş strateji fəaliyyəti böyük bir məktəb olaraq bu gün də bütün istiqamətlərdə öyrədir, bünövrə qoyur, yol göstərir. Bu

siyasi məktəb minlərcə azərbaycanlı gəncin gələcəyinə işıq saçmış, onun həyat yolunda əhəmiyyətli rol oynamışdır. Bu məktəbin ən uğurlu məzunu isə Ali Baş Komandan, müasir milli lider, müasir öndər, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdir. Ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərindən, müəllimindən, atasından dərs alaraq bizi Zəfərə qovuşdurdu. Böyük arzuları reallaşdıraraq, ata vəsiyyətini yerinə yetirərək "Azərbaycan" adlı müqəddəs kitabda hər iki şəxsiyyətin adını qızıl hərflərlə yazdırdı. Belə şəxsiyyətlər isə hər zaman xalqının xatirəsində əbədi olaraq yaşayacaqdır.

Heydər Əliyev məktəbini 3 dövrə ayırsaq, Sovet dövrü, 1982–1991-ci illər və müstəqil dövlətçilik dövrü kimi qruplaşdırıb təhlil etsək, bütün mərhələlərdə strateji düşünülmüş addımların müstəqil, işıqlı Azərbaycanın inkişafına hesablandığını görə bilərik. Bütün inkişaf istiqamətlərinin başlanğıcında gələcəyin izini indi reallıqlarla daha aydın müşahidə edirik. Bu istiqamətlərin içində neft strategiyasını, iqtisadi inkişafı, hərbi və ordu quruculuğunu, təhsil və gənclər siyasətini, milli məfkurə, milli kimlik ideologiyasını və digər istiqamətlərdə daha nələri misal gətirmək olar. Ulu Öndər neft strategiyasını uzaqgörənliklə böyük siyasətin, dünyada gedən inteqrasiya proseslərinin, milli təhlükəsizlik konsepsiyasının faktoruna çevirməyi bacardı, gənclər siyasətini gələcəyə hesablanmış prioritet istiqamətə çevirə bildi. Azərbaycanın inkişafını gənclərin inkişafı ilə əlaqələndirdi. Məhz bu əsaslarla strateji istiqamətləri inkişaf etdirib Zəfərə imza atan müasir öndər, Ali Baş Komandan bu gün qlobal çağırışlara uyğun neft strategiyasını ustalıqla yaşıl enerji

siyasətinə transformasiya edir, müstəqil dövlətimizin dövlətçilik modelini yeni müasir dövlət siyasəti modeli kimi təqdim edir. Azərbaycan bu gün təlatümlü dünyada sakit bir ada olaraq qorunur və idarə olunur.

Hələ Sovet dövründə – 1970–1980-ci illərdə Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi çətin rejimdə gənclərin azərbaycançılıq ruhunda tərbiyəsi və düzgün inkişafı üçün bir çox əhəmiyyətli addımlar atdı. Təhsilin əhatə dairəsi üç dəfə genişləndirildi, ən ucqar kəndlərdə belə məktəblər tikildi, Naxçıvanski adına Hərbi məktəb açıldı, Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbid olundu. Ulu Öndərin mədəniyyətimizə, ədəbiyyatımıza xüsusi qayğı və diqqəti milli mədəniyyətin inkişafına, milli dəyərlərin qorunub-saxlanmasına, milli məfkurənin formalaşmasına xidmət etdi. Gənclərimizin peşəkar kadr kimi yetişməsinə, keçmiş müttəfiq respublikaların nüfuzlu ali məktəblərində təhsil almalarına, müxtəlif vəzifələrdə irəli çəkilməsinə xüsusi yanaşıldı. Ulu Öndər Heydər Əliyev hələ o zaman uzaqgörənliklə müstəqil Azərbaycan dövləti üçün baza yaratdı, savadlı, sağlam, milli kökə və dəyərlərə bağlı gənclərin yetişməsinə böyük önəm verdi və bunun üçün ayrı-ayrı istiqamətlərdə vacib addımlar atıldı. Ulu Öndərin gənclər siyasəti sonrakı dövrlərdə də ən mühüm strategiya oldu. Unutmayaq ki, işğal dövründə yalnız xalqımız deyil, təhsil müəssisələrimiz də köçkün düşdü. Təhsilin infrastukturuna, maddi-texniki bazasına, təhsil ənənələrinə ciddi ziyan vuruldu.

Müstəqillik dövründə ölkədə təhsil islahatları aparılmasının zəruriliyini vurğulayaraq hər bir inkişafın elm və təhsildən asılı olduğunu qeyd edən Ulu Öndər demişdir: "Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problem-

lərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir”. Beləcə islahatlar başlandı. Gənclər siyasəti bu sahələrin məqsədli nəticəsi olaraq xüsusi əhəmiyyətli strategiyaya çevrildi. Gənclərin və təhsilin inkişafı istiqamətində qanunvericilik bazası yaradıldı. Bu gün də həmin baza qlobal çağırışlara uyğun yenilənməkdədir. Qlobal təhsilə inteqrasiya, bazar iqtisadiyyatına uyğunlaşma, elm və sənaye, ali təhsil və istehsalat tərəfdaşlığı, təhsilin böyük qayıdışı bu günün məqsədli srateji istiqamətlərindəndir. 7 Ali məktəbin beynəlxalq “QS” reytinq cədvəlinə düşməsi uğurlu yeni başlanğıcdır, işğaldan azad olunmuş torpaqlarımızda hər açılan məktəb, bağça orda uşaqlığı əlindən alınmış insanların haqqının qaytarılmasıdır, Qarabağ Universiteti qürur yerimizdir. “Tələbə krediti”, “Xaricdə ali təhsil proqramı”, “Könüllülər” və “Sabah qrupları” layihələri, “Yüksəliş” proqramı, alimlər üçün elmometrik göstəricilərlə əlavə əmək-haqqı tətbiqi gənclərin bu sahədə inkişafı üçün dövlət tərəfindən yaradılmış imkanlardır.

Heydər Əliyev məktəbi Azərbaycanın müasir dövlətçilik ənənələrini formalaşdıran strateji təməldir. Onun bütün dövrlərdə və bütün istiqamətlərdə fəaliyyəti Azərbaycanın gələcək inkişafı üçün əsaslı zəmin yaradıb. Müstəqil Azərbaycanın qurucusu Ümummilli Liderin formalaşdırdığı məktəbdə yetişən gənclik Ali Baş Komandanın rəhbərliyi ilə onun arzularını reallaşdırır, onu hər zaman ehtiramla yad edir.

**Vüqar Rəhimzadə.** Dekabrın 12-si müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin anım günüdür. Ulu Öndərin zəngin idarəçilik təcrübəsi, dövlətinə, xalqına bağlılığı onun irəli sürdüyü

təşəbbüslərdə və qəbul etdiyi qərarlarda özünün aydın ifadəsini tapdı. Ümummilli Lider Heydər Əliyev dahi şəxsiyyət kimi tarixi hadisələrin gedişini öncədən müəyyən edir, qərarların qəbulu zamanı əsl vətənpərvərlik mövqeyi nümayiş etdirirdi. Azərbaycan tarixinin 1969-cu ildən başlanan yeni dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşduran qüdrətli şəxsiyyətdir. Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etdi. Lakin müstəqilliyimizin bərpasının ilk illəri xalqımız üçün böyük faciələrlə, təhlükələrlə yadda qaldı, tariximizə qaranlıq səhifə kimi yazıldı. Həmin dövrün iqtidarının yarıtmaz siyasəti, hakimiyyət uğrunda gedən mübarizə, şəxsi ambisiyaların dövlət maraqlarını üstələməsi Azərbaycanı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoydu. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycan adlı dövlətin mövcudluğundan danışmaq mümkün deyildi. Bu qayıdış Azərbaycanı böyük bəlalardan xilas etdi. Dahi şəxsiyyət Heydər Əliyevin cəsarəti, zəkası, təcrübəsi, xalqın öz dahi rəhbərinə inamı sayəsində Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqlardan, iqtisadi böhrandan xilas oldu, inkişaf, tərəqqi dövrünə qədəm qoydu, torpaqlarımızın işğalının qarşısı alındı.

1993–2003-cü illər Azərbaycan tarixinə dirçəliş, inkişaf dövrü kimi yazıldı. Həmin illərin, eyni zamanda, 2003-cü ildən başlanan böyük yolun əsasında Ümummilli Liderin yenə də xilaskarlıq missiyası dayanır. Onun düşünülmüş

siyasəti nəticəsində Azərbaycan inkişaf yoluna çıxdı. Hər bir inkişafın əsasında sabitliyin dayandığını önə çəkən Ümummilli Liderin əsas diqqət göstərdiyi məsələ ölkədə sabitliyin yaradılması oldu. Azərbaycan qısa müddətdə sabitlik məkanına çevrildi.

Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Ümummilli Liderin zəkasının işığında qədəm qoydu. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir müstəqil Azərbaycan dahi şəxsiyyət Heydər Əliyevin həyat amalının təntənəsidir.

Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, bütün dünyaya səs salan, nəinki regionda, hətta dünyada yeni reallıqlar yaradan tarixi Zəfərimiz məhz Ümummilli Liderin uğurlu və düşünülmüş siyasəti nəticəsində yaradılan birliyimizin, həmrəyliyimizin təqdimatı oldu. 44 günlük İkinci Qarabağ müharibəsinin rəmzinə çevrilən "dəmir yumruq" gücümüzü, həmçinin birliyimizi nümayiş etdirdi. Son 21 ildə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə yeni inkişaf strategiyası həyata keçirilir.

Vətənini, torpağını, xalqını canından artıq sevən, Azərbaycanı daim zirvələrdə görmək istəyən və buna nail olan Ümummilli Liderin ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı və bu ərazilərdə yeni həyatın başlanması idi. Artıq bu arzular reallıqdır. Ulu Öndər Heydər Əliyevin yaratdığı möhkəm təməl Azərbaycanı zirvələrə ucaldaraq zəfərdən-zəfərə aparır. Özünün də qeyd etdiyi kimi: "nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam".

Heydər Əliyev siyasəti ölkəmizə uğurlar qazandırmaqda davam edir, qarşıya yeni hədəflər qoyulur. Bu gün Qarabağımız, Şərqi Zəngəzurumuz dirçəlir. Soydaşlarımız doğma yurd-yuvalarına qayıdışın sevincini yaşayır. Xalqımız əmindir ki, dövlətimizin başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində Qarabağda və Şərqi Zəngəzurda bütün quruculuq işləri uğurla başa çatacaq, Böyük Qayıdış proqramı tam tərkibdə icra ediləcək, sahibinə qovuşmuş torpaqlarımız Azərbaycanın dayanıqlı inkişafına öz töhfələrini verəcəklər.

# MÜNDƏRİCAT

10 dekabr 2024-cü il ........................................................... 3
Edilməmiş çıxışların mətnləri............................................... 85

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Birinci sessiya
Payız

14-cü cild

10 dekabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  5,5. Sifariş 8. Tiraj 150.